“GÜLÜSTAN”dan

№8 Fevral-Mart 2025 - Qadın - Ailə - Jurnalı

GÜLÜSTAN
Qadın-Ailə jurnalı
№8-Fevral-Mart

Təsisçi:
Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı

Redaktor:
Lamiyə HACIYEVA

Redaktor müavini:
Mirvari NAĞIYEVA

Redaksiya heyəti:
Mirvari Nağıyeva
Nabat Eminova
Nərgiz Bağırova
Nərgiz Tanrıverdiyeva

Dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: GÜRCÜSTAN,
Rustavi şəhəri,
Şartava 12 b.
Tel: (+995) 577 15 73 81

e-mail:
gulustanjurnali@hotmail.com

Əziz Oxucu!

Ədəb insanın ən dəyərli sərvəti, libası və mirasıdır. Sərvətidir, çünki insan ədəbi ilə zəngin olar, dəyər qazanar. Libasıdır, çünki insan ədəb örtüsünə bürünməzsə rəzil olar, rüsvay olar. Mirasıdır, çünki insanın özündən sonrakı nəslinə verə biləcəyi ən qiymətli mülküdür. İnsan ədəbi, ədəbli olmağı ailəsindən, valideynlərindən öyrənir. Ona görə də ilk olaraq ailəmizdən başlayaraq bütün həyatımızın hər anında, hər halında ədəbli olmağa səy göstərməliyik. Hansı hadisə və ya şəraitdən asılı olmayaraq ədəb sərgiləmək insanın həyat tərzi olmalıdır. *“İnsanlığın ən böyük dəyəri-ədəb”* məqaləsini oxuduğunuzda ədəbin bütün insani duyğuları mənimsəyən bir simvol olduğunu görəcəksiniz. *“Ailə ədəb məktəbidir”* yazısında da ailənin insan tərbiyəsində, ədəb qaydalarının öyrənilməsində vacibliyindən yazmağa çalışmışıq. Həmçinin Fatimə Zəhranın da *“Əbədi zənginlik - ədəb”* yazısında dinimizin və Allah kəlamı Qurani-Kərimin insan üçün başdan-başa ədəb təlimi olmasından bəhs olunur.

İnsanlara məxsus ədəb ölçülərindən biri də sədaqətdir. Allahımıza, özümüzə və ətrafımıza göstərdiyimiz sədaqət bizim əxlaqımızın bir ölçüsüdür. Əlif Güldar *“Sədaqət doğruluğun təməlidir”* yazısı insanların sədaqətli olmasının vacibliyi və gözəlli yi haqqında yazılmışdır. Ən böyük sədaqəti Hz.Əbu Bəkirin sevgili Peyğəmbərimizə qarşı göstərdiyini də nümunə gətirmişdir.

Cəmiyyətimizdə yaşanan ciddi problemlərdən bir tərəfdə böyük israfların yaşandığı dünyada, digər tərəfində insanların aclıqla mübarizə aparmalarıdır. İstər maddi, istərsə də mənəvi israfımızı möhtərəm Osman Nuri Topbaş özünün dəyərli əsərində təhlil və izah etmişdir.

Son zamanlar ailə bağlarının qırılması, qopması cəmiyyətimizin əsas problemlərindən birinə çevrilmişdir. Nəslihan Günəş *“Nur saçan evlər”* məqaləsində bu mövzunun həssas məqamlarına toxunaraq, çıxış yollarını göstərməyə çalışmışdır.

Bu sayımız ramazan ayına yaxın tarixə təsadüf etdiyi üçün Ramazanla bağlı olaraq “Rəhmət mövsümü və üç aylar yazısı ilə birlikdə *“Qiyməti ölçülməyən xəzinə üç aylar”* yazılarını da sizlərə təqdim etdik.

Əziz oxucu!

Bu yazılarla yanaşı, ənənəvi rubrikalarımız və şərhini sığdıra bilmədiyim bir sıra dəyərli yazılarımızı sizlərə təqdim edirik. Sizin istək və arzularınız, iradlarınız bizim üçün çox dəyərlidir. Bizə yazmağı unutmayın!

Gələn sayımızda görüşənədək, Yaradana əmanət olun!

İÇİNDƏKİLƏR

4 **İnsanlığın Ən Böyük Dəyəri - Ədəb**

Lamiyə Hacıyeva



6 **İnsanlığın RƏHMƏT MÖVSÜMÜ və İNSAN**

Seda Tecim



8 ***Qiyməti Ölçülməyən Xəzinə Üç Aylar***

Aysel Vahabova



20 ***KÖNÜL İQLİMİNDƏN İNCİLƏR***

Osman Nuri Topbaş



10 ***AİLƏ ƏDƏB MƏKTƏBİDİR***

ffd. Gülnarə SEYİDOVA



12 *– Əlif GÜLDAR Sədaqət doğruluğun təməlidir*

14 *– Fatimə ZƏHRA Əbədi Zənginlik Ədəb*

17 *– Xatirə KƏNGƏRLİ Son nəfəs həyəcanı*

18 *– Nəzirə HÜSEYNOVA Hz. Aişə İlahi bəraət*

23 *– Aygün MƏMMƏDZADƏ Əl- BƏSİR*

24 *Prof. dr. Necdet TOSUN – (Hz. Əbu Bəkir (r.a*

27 *– Sevinc Vəkilova Məsٰt üzərinə məsh*

28 *– Xədicə ŞAHİN Qəlbimizi Quranla dindirənlər*

30 *– Samirə MAHMUDOVA Müşk çantası*

32 *– Nəslihan GÜNƏŞ Nur saçan evlər*

34 *Mətanət KƏRİMOVA- Süfrənizdə qonağa yer açın*

36 *Aygün MƏMMƏDZADƏ Ləzzət dünyası*

38 *– Vüqarə MƏMMƏDOVA Albinizm xəsٰtəliyi*

40 *Səbinə QASIMOVA – Günəbaxan çiçəyi*



Əməldə Ədəb

Haqq dostları, ariflər belə buyurmuşlar:

"İbadət insanı cənnətə aparar, ibadətdə ədəb və təzim isə Allaha aparar, Haqq ilə dost edər".

Ənəs ibn Malik buyurur:

"Əməldə ədəb onun qəbul olmasına işarətdir".

Lamiyə HACIYEVA

İnsanlığın ən Böyük Dəyəri – Ədəb



Bu fani həyatda yaradılmışların ən şərəflisi insan oğludur. Bu şərəfin fərqində olub ömür sərmayəsini ona uyğun olaraq yekunlaşdırmalıyıq ki, Haqqın rizasına nail ola bilək. Ayədə buyrulur: "***Şübhəsiz, Adəm oğullarını (bir çox nemətlər verməklə) şərəfləndirdik. Onları (müxtəlif minik vasitələri ilə) quruda və dənizdə daşıdıq. Onlara təmiz və gözəl ruzilər verdik. Onları yaratdıqlarımızın bir çoxundan üstün etdik.***" (İsra 70). Ayədə də buyrulduğu kimi, yaradılmışların bir çoxundan üstün edildik.

Bəs heç düşündükmü bu üstünlük nə ilədir? Bu üstünlüyün bir çox yanları vardır, ancaq bu mövzuda insan oğluna bəxş edilmiş ən gözəl nemət olan ədəbdən söz açmaq istəyirəm. Ədəb insanoğlunu qəlbən qucaqlayan bir doğma kimidir, əziz kimidir…

Ədəb içərisində bütün insani duyğuları mənimsəyən bir simvoldur. Ədəb dedikdə sadəcə hörmət, namus və iffət düşünülməməlidir; ədəb əxlaqı, mərhəməti, şəfqəti, səmimiyyəti və s. duyğuların tamamına verilmiş bir ad timsalıdır.

Ədəb içərisində bütün insani duyğuları mənimsəyən bir simvoldur. Ədəb dedikdə sadəcə hörmət, namus və iffət düşünülməməlidir; ədəb əxlaqı, mərhəməti, şəfqəti, səmimiyyəti və s. duyğuların tamamına verilmiş bir ad timsalıdır.

Günümüzdə bu adın altında toplaşaraq bu duyğularla yüklənməyə o qədər ehtiyac var ki. Sanki susuzluqdan çatlamış torpaq misalı o qədər ehtiyac vardır. Bu ehti-



yacı qarşılamaq hər bir insanın boynuna düşən bir insanlıq vəzifəsidir.

Peyğəmbərimiz Hz. Məhəmməd (s.a.s.) buyurub: "Mən yaxşı əxlaqı tamamlamaq üçün göndərildim." Bu hədis, hər bir müsəlman insan üçün ədəbin nə qədər vacib olduğunu göstərir.

Ədəb yalnız xarici davranışlarla məhdudlaşmır. Daxili təmizlik, qəlbin pak olması, kin, paxıllıq və qəzəb kimi mənfi hisslərdən uzaq olmaq da ədəbin bir hissəsidir. İnsan üçün daxili təmizlik, mənəvi zənginliyin əsasını təşkil edir.

Ədəbi davranışların günü-gündən dəyərsizləşdirilməyə çalışıldığı bir mühitdə yaşamaq və elə bir mühitdə yeni nəslin nümayəndəsini ədəb üzrə yetişdirə bilmək olduqca böyük bir əmək, diqqət və fədakarlıq tələb edən bir məsuliyyətdir. Ancaq insanoğlu ona verilmiş ağılı və düşüncəni istifadə edərək özünə verilmiş ədəbi dəyərləri yenidən yaşıllaşdıra bilər və o zaman yuxarıda sadaladığımız çətinliklər bir anlıq da olsa rahatlığa qovuşar.

Dünyanı daha yaşanıla biləcək bir hala gətirməyin yeganə yolu ədəbi dəyərləri yaşamaq, yaşatmaq və gələcək nəsillərə ötürməkdən keçir. Dəyərləri olmayan bir nəsil məhv olmağa üz tutmaqdadır.

İslamda ədəb, insan üçün yalnız bir davranış qaydası deyil, həm də mənəvi bir dəyərdir. Təvazökar, nəzakətli və daxilən təmiz olmaqla, insan həm dünyada, həm də axirətdə uğur qazana bilər. Gəlin, ədəbi həyatımızın bir parçası edək və İslamın gözəlliyini yaşayaraq dünyaya yayaq.

Bu gün dünyanın halının dəyişdiyindən narazı olan bizlər, sabah seyr etməsi çətin mənzərələrlə qarşılaşmamaq üçün cəmiyyətin hər bir fərdi bacarığı nisbətində məsuliyyətə çiyin vermək məcburiyyətindəyik. Əksini düşünmək belə insanı ürpərdir.

Ürpəriləcək səhnələrin yaşanmaması ümidi ilə ədəbi dəyərləri qorumağa dəvətlisiniz, dəyərli möminlər.

Seda TECİM



RƏHMƏT MÖVSÜMÜ və İNSAN

Dərvişə "Necə insan olmaq olar?" deyə sual verirlər. O da "3 addım atmaqla" deyir.

"Birinci sənə pislik edənlərə qarşı pislik düşünməmək. İnsanlığa atdığın ilk addım budur. Sənə pislik edənlərə yaxşılıq edə bildiyin vaxt da ikinci addımı ataraq həqiqi insan olmağa başlayarsan. Nəhayət, sənə yaxşılıq edənlə pislik edən arasında fərq hiss etməməyə başlayanda isə sən insan olarsan".

İnsan Rəbbimizin "əhsəni-təqvim" olaraq yaratdığı ən mükəmməl varlıqdır. Yaradılış xüsusiyyətlərinə, qayəsinə sahib çıxdığı müddətcə yüksəklərdə, yaradılış qayəsini unutduğu zaman isə aşağının da aşağısındadır.

İnsan həyatı yaşama sevinci ilə ölümün soyuq ürpərtisi arasında keçir. Bunun hikməti insanın təfəkkür və idrakının sonsuzluğa açılmasıdır. Çünki bu həyatda məqsəd əbədi səadət qazanmaqdır. Belə ki, insan üçün lazım olan əcəl ürpərtisindən qurtararaq həyatı da, ölümü də gözəlləşdirməyə çalışmaqdır. Bunu bacardığında insan mənəvi təkamülə çatır və onun üçün ilahi vüslət qapıları açılmağa başlayır.

İnsanın yaradılış məqsədinə sadiq qala bilməyi özünü dügün tanımaqdan keçir. Daxilindəki nəfs ilanını görə bilməyən ona qarşı tədbir də ala bilməz. Nəhayət, onun zəhərinin qurbanı olar. Bu səbəblə, "Özünü tanıyan Rəbbini də tanıyar" buyurulub. Hz. Mövlana gerçək işığında insanın özünü daha yaxşı tanımağı üçün bizə bu sözlərlə sanki güzgü uzadır:

"İnsan sanki meşəyə bənzəyir. Necə ki, meşədə minlərlə, təmiz və pis xasiyyətli heyvan varsa, insanın daxili aləmində də hər cür gözəllik və çirkinlik var. Ey insan! Musa da, Firon da sənin daxilindədir. Bu iki şeyi özündə axtar! Vəhyin işığıyla aydınlan ki, səndəki Musa Firona qalib gəlsin.

Dahi şair Yunus Əmrə də ("Bir dəm gələr" adlı şeirində), ustad Nəcib Fazil Qısakürək də öz misralarında insanı anlamağa və anlatmağa çalışıblar.

İnsan bu, su misali, kıvrım kıvrım akar ya,
İnsandır sanıyordum mukaddes yüke hamal,

İnsan üç beş damla kan, ırmak üç beş damla su…

"Əmanət" verilən insan imtahan dünyası olan həyat yolunda zaman-zaman özünü və yolunu itirir. Dünya deyilən keçici bu yurdun işıqlı görüntüləri gözümüzü qamaşdırır. Bəzən də dumanlı havalar qəlbimizi kirlədir. Sevgi, məhəbbət üçün yaradılan qəlblərə nifrət, kin, kibir, düşmənlik və s. lazımsız toxumlar atılır. Dünyanı və insanlığı ələ keçirmə dərdinə düşən qlobal güclər insanı pisliklərin, düşmənliklərin mərkəzinə çevirməyə çalışırlar. Dünyanın cah-calalı insanı müqəddəs yolundan uzaqlaşdırmamalıdır. Daxildəki nəfs, kənarda da bu qədər düşmən var ikən insanın göstərdiyi əzm olduqca qiymətlidir.

Bu böyük mücadilədə insanın yanında yaxşı dostları olmalıdır. Nə vaxt Allahdan uzaqlaşsaq, o gözəl dostlar sayəsində yolumuza dönə bilək. Ətrafımızdakı insanları düzgün seçmək lazımdır ki, doğru yolda gedə bilək.

Alimlər bir-birilərini ürəkləndirmək üçün bu 3 mövzuya toxunurlar:

"Daxili aləmini gözəlləşdirən insanın, xaricini də Allah gözəlləşdirir;

Allahla arasını düzəldən insanın, Allah da digər insanlarla arasını düzəldər;

Dünyasını düzəldən insanın, Allah da axirətini düzəldər".

Həm daxili, həm də xarici dünyamızı gözəlləşdirmək üçün arınma mövsümləri var. Mübarək 3 aylar, Ramazan belə rəhmət mövsümlərindəndir.

Bu aylarda oruc tutmağa önəm verilməlidir. Oruc insana təqva qapısını açır, insanı hər yöndən təmizləyir. Hər mömin müntəzəm olaraq Quran oxumalıdır. Quran asta səslə oxunmalıdır. Gecənin qaranlığında oxumağın isə savabı daha çoxdur. Namazlarımıza əhəmiyyət vermək lazımdır. Gecələri ehya etmək olduqca savabdır. Bunu adət halına gətirə bilmək lazımdır. Mənəviyyat yolunda "gecə gəzintisi" qədər təsirli başqa yol yoxdur. 3 aylarda bunu yoluna qoya bilsək, ömür boyu belə davam edə bilərik.

Comərd olmaq lazımdır. Ən böyük nemətlərdən biri Allahın quluna doğru yolu göstərməyidir (istiqamət). İstiqamətdə hər işi üsuluna uyğun görmək, gördüyümüz işin elmini öyrənmək lazımdır. 3 aylarda bunu da etmək önəmlidir. Hər kəs özünün ayıblarını, qüsurlarını bilir. Gəlin, 3 aylarda bunları düzəltməyə niyyət edək.

Rəbbimiz nəfslərimizin xətaları və çağımızın mənfilikləri ilə kirlənən qəlblərimizi rəhmət mövsümü 3 ayların hörmətinə arındırsın. Bizi özündən razı olan, Özünün də bizdən razı olduğu qullarından etsin. Amin!



Aysel VAHABOVA

Qiyməti Ölçülməyən Xəzinə

Üç Aylar







Təbiətin dörd mövsümü var və hər mövsüm insanlarda fərqli ab-hava yaradır. Çünki hər mövsümün valehedici gözəlliyi və rəngi vardır. Mövsümlər sadəcə təbiətə təsir etmir insanların əhval-ruhiyyəsinə, yedikləri qidalara, geyimlərinə də təsir edir. Çünki mövsümlər dəyişdikcə insanların həyat tərzləri də mövsümlərə görə şəkillənir. Bəzi insanlar qış mövsümünü sevər, bəziləri yazı, bəziləri yayı, bəziləri isə payızı.

Ancaq bu mövsümlərdən fərqli olaraq elə bir mövsüm var ki, kiçikdən-böyüyə hər kəsin sevdiyi, insanlara maddi və mənəvi olaraq rahatlıq verən, rəhmətin yağdığı, mələklərin səf-səf yer üzünə endiyi, duaların qəbul olduğu, savabların çoxaldığı, günahların azaldığı, bəzi günlərinin min aydan daha xeyirli olduğu bir mövsümdür. Bu, üç aylar mövsümüdür.

Üç aylar öz içində daşıdığı xəzinələri ilə bizə ana kimi qucaq açır. Bu aylar Qəməri təqviminə görə Rəcəb, Şaban və Ramazan aylarıdır. Bu aylar tövbə etməyin, bağışlanmağın, mənəvi təmizlənməyin, özünü yeniləməyin xəbərçisi olan Rəqaib, Merac, Bərat qəndilləri, Qədr gecəsi və Ramazan bayramı kimi mübarək gün və gecələri ilə bir mənəviyyat mövsümüdür. Rəcəb və Şaban ayları rəhmət ayı olan Ramazanı qarşılayan aylar olub Ramazan ayının müjdəçisidir.

Ramazan çox qiymətli, çox müstəsna, Quran ilə şərəflənən bir aydır. Ona hazırlıq olan Rəcəb ayı, Rəqaib və Merac ilə zinətlənib. Şaban ayı isə Peyğəmbərimizin (s.ə.s.) Ramazandan sonra ən çox oruc tutduğu və Bəraət qəndili ilə mübarək bir ay olaraq bizə təqdim edilmişdir.

Bunlar qiymətini bilənlər üçün böyük bir bərəkət sərmayəsidir. Bunun şüurun-



da olmağımız bizə ən gözəl qapıları açır. Rəhmət və bərəkət mövsümünə giririk. Bu rəhmət və bərəkət həyatımızın hər səhifəsinə yayılacaqdır.

İslam dünyasında hər il mənəvi bir iqlimin hökm sürdüyü və Ramazan bayramı ilə sona çatan üç aylar, müsəlmanların dini hissiyyatını çoxaltmaq, gündəlik həyatlarını sorğu-sual etmək, yeniləmək və zənginləşdirmək fürsəti verir. Üç aylar, Allahın qullarına olan məhəbbət və mərhəmətinin nişanəsi olaraq ilahi əfv, məğfirət, rəhmət və bərəkətini ehsan etdiyi çox qiymətli bir lütf zamanıdır. Demək ki, Allah biz qullarına ilahi lütf və ehsanlarına nail olmağımız üçün bir sıra fürsət qapıları açır. Kiçik hədiyyə verənə təşəkkür etməyi vicdan borcu olaraq görürüksə, Allahın hədiyyələrinə nə qədər şükür etməliyik?

Hz. İmam Şafi belə buyurur:

"Qurani-Kərimdə başqa bir surə nazil olmasaydı, çox qısa olan Əsr surəsi belə insanların dünya və axirət xoşbəxtliyini təmin etməyə kifayət edərdi. Bu surə Quranın bütün elmlərini içində toplayır. Surədə belə buyrulur:

"And olsun axşam çağına (ikindi vaxtına, əsr namazına, zamana və ya Peyğəmbərin əsrinə) ki, insan (ömrünü bihudə işlərə sərf etməklə, dünyanı axirətdən üstün tutmaqla) ziyan içindədir.

Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı və səbri tövsiyə edən kimsələrdən başqa! (Bələləri Cənnətə nail olub əbədi səadətə qovuşanlardır!)" (Əsr surəsi: 1,2,3)

Hesabsız lütflərə nail olunan bu mübarək günlər, Əsr surəsində buyurulduğu kimi, "Bələləri Cənnətə nail olub əbədi səadətə qovuşanlardır!" zümrəsinə daxil olmaq üçün böyük fürsətdir.

Dinimizdə ayrı bir dəyəri olan üç ayların insanın xüsusiyyətlərinin yetkinləşməsində və iradəsini nəzarət altına almasında rolu büyükdür. Çünki Rəcəb və Şaban aylarının feyzindən və bu aylarda olan Rəqaib, Merac və Bəraət gecələrinin rəhmətindən istifadə edən bir insan Ramazan ayında hər cür günahdan özünü uzaqlaşdırar və nəhayət, Qədir gecəsində edəcəyi ibadət və tövbə ilə mənəvi həzzə çatar. Mübarək zamanlar həyəcanları yeniləyir. İman həyəcanı gücləndirir və həvəsi çoxaldır. Rəbbimiz bizdən sadəcə bu üç aylarda deyil, hər zaman qulluq istəyir. Lakin qullarına belə mənəvi düşərgə və xüsusi zamanları lütf edərək onların bütün həyatlarını təqva şüuru içində keçməsinə vəsilə olur.

Hz. Mövlana belə buyurur :

"Həccə gedənlər orda Kəbənin sahibini axtarsınlar. Kəbənin sahibini taparlarsa, Kəbəni hər yerdə tapa bilərlər".

Yəni bu üç ayları, xüsusilə Ramazan ayını idrak edənlər, bunu ikram edən Allahın rizasına nail olarlarsa, onlar yaşadıqları hər günü Ramazan ayı kimi rəhmət və bərəkətlə keçirərlər. Rəbbimiz Üç ayları həyatımızın hər səhifəsinə yayaraq hüzurla keçirməyi və son nəfəsimizə qədər bu səadətlə yaşamağı nəsib etsin. Amin.

Üç aylar, Allahın qullarına olan məhəbbət və mərhəmətinin nişanəsi olaraq ilahi əfv, məğfirət, rəhmət və bərəkətini ehsan etdiyi çox qiymətli bir lütf zamanıdır. Demək ki, Allah biz qullarına ilahi lütf və ehsanlarına nail olmağımız üçün bir sıra fürsət qapıları açır.

f.f.d. Gülnarə SEYİDOVA
g.seidova@yahoo.com



Ailə ədəb məktəbidir!

Ədəb, gözəl tərbiyə, əxlaq, yaxşı davranış, həya, nəzakət kimi mənaları ifadə edir. Bütün bu xüsusiyyətlərə sahib olan insan ədəbli hesab olunur.

Həzrət Loğmandan soruşurlar:

- Ədəb, əsalət, mal və elmdən hansı daha üstündür?

- Ədəb əsalətdən, elm maldan xeyirlidir - buyurur.

Hər insan doğulduğu andan etibarən valideynlərindən, ya da onu əhatə edən insanlardan ədəb, əxlaq qaydalarını öyrənməyə başlayır. Onun ətrafında baş verən hər hadisə onun gələcək davranışlarını formalaşdırır. Ədəbli bir mühitdə böyüyən insan, əlbəttə, gördüyünü götürər, gözəl xüsusiyyətlərə sahib olar. Daha fərqli ədəbin, əxlaqın, hörmətin olmadığı bir mühitdə böyüyən insan isə təbii ki, gördüklərinə uyğun tərbiyə almış olar.

Əslində, ədəb həddini bilmək, sərhədi aşmamaq deməkdir. Ailədə, iş yerində, cəmiyyətdə hər kəsin bir həddi vardır. Bütün problemlər və sıxıntılar həddi aşmaqdan qaynaqlanır. Hər kəs sərhəddini bilib aşmazsa, məsələn, evin xanımı da, kişisi də, öz həddini bilib ona görə hərəkət edərsə, o ev Cənnət kimi olar. O zaman nə davadalaş, nə söz-söhbət, nə də problem olar. Bəs bu ədəbi gözləmək çox çətindir? Nəyə görə insanlar hədlərini aşaraq bir-birilərini incidirlər?

Ailə fərdlərinin bir-birinə qarşı ədəbli olması çox önəmlidir. Sözsüz ki, hər ailədə sıxıntı, söz-söhbət olur. Bu problem zamanı ailə fərdlərinin bir-birinə qarşı ədəbli olması mütləqdir. İnsanlar çox zaman iş yerində, fərqli ortamlarda ədəbli davranışlar sərgiləsə də ailə daxilində son dərəcə kobud və qırıcı ola bilirlər. Əsas ədəbli olunması vacib olan yer isə ailədir. Çünki ailə insanların



ədəb və əxlaq qaydalarını öyrəndiyi əsas məktəbdir. Ailə ədəbini əsasən aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Ata və ana arasındakı münasibətlərdə ədəb qaydaları.

2. Ata-ananın övladlarına qarşı münasibətindəki ədəb qaydaları.

3. Ata-ananın öz valideynlərinə qarşı münasibətindəki ədəb qaydaları.

Diqqət etsəniz bu ədəb qaydaları bir-birilə necə bağlıdır. Yəni valideynlərdən alınan ədəb qaydaları övladlara, onlardan da yenə valideynlərə ötürülən bir zəncirvari bağlarla bağlıdır.

Ata-ana arasındakı ədəb qaydaları onların arasında olan münasibətlərlə yanaşı, övladların da tərbiyəsinə birbaşa təsir edir. Evdə həyat yoldaşına daima gözəl, sevgi ilə davranan, sıxıntılı anlarda belə həddini aşmayan həyat yoldaşları, əlbət, xoşbəxt olmaqla yanaşı, övladlarına da müsbət nümunə olarlar. Belə mühitdə böyüyən uşaqlar da gələcəkdə istər ailələrində, istər iş yerlərində ya da dostlarının əhatəsində ədəbli görünər, hər kəsin könlündə gözəl izlər salarlar. Valideynlər hər qarşılaşdıqları problem zamanı bir-birinə düşmən kəsilərək deyilə biləcək ən ağır ifadələri işlədərkən, təəssüf ki, nə ədəb qalır, nə də qarşılıqlı hörmət. Bu münasibətlərin əhatəsində böyüyən uşaqlar da öz nəsiblərini alaraq gələcəkdə eyni davranışları sərgiləyərlər.

Valideynləri tərəfindən gözəl münasibət görən uşaqlar, əlbəttə, xoşbəxt və ədəbli böyüyərlər. Onlara öyrədilən bu ədəb gələcəkdə valideynlərinə mükafat olaraq geri dönəcək. Əksinə daim təhqir olunan, alçaldılan, ədəbdən kənar münasibətlər görən uşaqların gələcəkdə ədəbli olması böyük bir möcüzə olar. Yəni onlar uşaqlıq dövründə gördükləri münasibəti həyatları boyunca davranışlarında sərgiləyəcəklər.

Ailə ədəbindən danışarkən ata-anaların öz valideynlərinə qarşı münasibətlərindən danışmamaq olmaz. Valideynlərinə göstərdikləri münasibət birbaşa övladları tərəfindən izləndiyinə görə ata-analar daha diqqətli olmalıdırlar. Nə yaxşı ki, bizim mədəniyyətimizdə böyüklərə, xüsusilə də valideynlərə hörmət mövcuddur. Əksər ailələrimiz yaşlı valideynlərlə birlikdə, böyük hörmət və qayğı ilə yaşayırlar. Bu münasibəti görən övladlar da gələcəkdə valideynlərinə eyni şəkildə davranırlar. Beləcə bu şəkildə böyüyən nəsillər bir-birini izləyirlər. Az da olsa valideynlərinə vəfasızlıq edib, onlara qarşı ədəbsiz davrananlar, qayğı göstərməyənləri, təəssüf ki, cəmiyyətimizdə görürük. Bu davranışları sərgiləyənlər gələcəkdə həm dünya, həm də axirətdə mütləq peşman olacaqlar. Bizi bu dünyaya ata-analarımızın vəsiləsi ilə gətirən Allah-Təala onlara qarşı davranışlarımıza diqqət etməyi bir sıra ayələrdə bildirmişdir. Bunlardan biri, Əl-İsra surəsinin 23-24-cü ayələridir:

Ədəb həddini bilmək, sərhədi aşmamaq deməkdir. Ailədə, iş yerində, cə-miyyətdə hər kəsin bir həddi vardır. Bütün problemlər və sıxıntılar həddi aşmaqdan qaynaqlanır. Hər kəs həddini bilib, sər-həddini aşmazsa, məsələn, evin xanımı da, kişisi də, öz həddini bilib ona görə hərəkət edərsə, o ev cənnət kimi olar.

“Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: “Uf!” belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: “Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!”– de”.

Bu uca kəlamlardan nəsib alaraq valideynlərimizə, övladlarımıza, dostlarımıza, bir-birimizə və nəhayət, özümüzə qarşı ədəbli olmaq diləyi ilə…

Əlif GÜLDAR

Sədaqət doğruluğun təməlidir

Sadiq, sidq, sədaqət sözlərini eşitmək qulağa xoş gəlir. Qulaqdan qəlbə doğru dalğa-dalğa bir səyahət başlayır. İnsan sözü ilə davranışı arasında uyğunluq yaranır. Mühüm olan bilinənin həyata keçirilməsidir. Bilinən tam olaraq o zaman məna qazanır. Söz bir əmanətdir. Sirrə sahib çıxmaq sədaqətin və dostluğun gərəyidir. Sədaqət doğru düşünmək, doğru danışmaq, doğru davranış sərgiləmək və eyni zamanda doğruluğu qəlbdə qorumaq deməkdir. Başqa sözlə sədaqət doğruluq, həqiqətə uyğun olan doğru sözdür. Qərəz ləkəsindən təmizlənmiş və hər cəhətdən xalis olan bir dostluq da sədaqətdir. Hər hansı bir doğruluğa da sədaqət deyilir. Doğruluğun ziddi yalandır. Sədaqətin əksi xəyanətdir, düzgünlükdən məhrum olmaqdır. İnsanlara sidq və sədaqət yaraşar. Yalançı bir kimsəni nə Allah sevər, nə də qulları. Sədaqət iman sahibi insanların ən əhəmiyyətli xüsusiyyətlərindən biridir. Ənəsdən (r.a.) rəvayət olunur ki, Allah Rəsulu (s.ə.s.) belə buyurmuşdur: *"Etibarlılığı olmayanın kamil imanı yoxdur, əhdinə sədaqəti olmayanın dinə bağlılığı yoxdur"*.

Əsri-səadətdən bir nümunə Peyğəmbərimizin (s.ə.s.) tərbiyəsində böyüyən Ənəsdir (r.a.). Könüllər sultanı Peyğəmbərimiz (s.ə.s.) Ənəsi (r.a.) bir iş üçün göndərir. Ənəsin (r.a.) anası bunu öyrənmək üçün soruşduqda: *"Rəsulullahın əmanətidir, deyə bilmərəm"*, - deyir. Sahiblənmə, qoruma, mühafizə etmə! Bəli, bu gün biz nəyi mühafizə edir, nəyi sahiblənirik?! Əsri-səadətdən başqa bir

nümunə; Hicrət – Peyğəmbərimizin (s.ə.s.) mübarək səfəri, yanında sadiq dost, səfər başlayacaq, lakin onun Məkkədən getdiyini müşriklər bilməməlidir. Rəsulullahın (s.ə.s.) evində, onun olduğu məkanda Həzrət Əli (r.a.); *"Sən get, ey Allahın elçisi, əmanətlərin mənə əmanətdir"*, - deyib, onu canı bahasına sahiblənmək, qorumaq və sədaqətdə qabaqcıl olmaq... Sadiq dost Həzrət Əbu Bəkir (r.a.) - yol yoldaşı, mağara dostu, dəstəkləyəni... Ona zərər gəlməsin deyə ayağını mağaradakı ilanın yuvasına sipər edən, sədaqət zirvəsi, bütün zaman və məkanların ən üstün sədaqət nümunəsi, sadiq dost...

Bu gün dostluqlarımız, əmanətlərimiz, sözlərimiz nə haldadır? Nəyə, nə qədər sadiqik? Ailə, uşaq, iş, cəmiyyət, sözlərimiz və ümmətə əmanət edilən müqəddəs dəyərlərimizə qarşı sədaqətimizi daim nəzərdən keçirməliyik. Söz əmanəti nə qədər yalandan uzaqdır? Sözlərimiz nə qədər saf, təmiz və aydındır... Qeybət dildə zəhərli bir xəncərdir. Bu xəncər qəlblərdəki məhəbbət, şəfqət, mərhəmət və qardaşlıq hisslərini öldürür. İnsanları bir-birinə düşmən edir.

Necə ki, Fudayl ibn İyad: *"Qeybətin girdiyi yerdən qardaşlıq çıxıb gedər"*, - demişdir. Sözdə nifrət olmamalı, suyun axışı kimi saf, duru, təmiz olmalıdır. Sadiq olmaq doğru olmaq, əlif kimi əvvəl Ələst Bəzində Rəbbimizə verdiyimiz qulluq sözünə sadiq qala bilmək, dünyanın hilələrindən, qarışıqlığından özümüzə dönə bilməkdir. Allah müqəddəs Kitabımız Qurani-Kərimdə ilk nazil olan ayə olaraq insana *"Oxu!"* əmrini vermişdir. İnsan yaşamalı olduğu həyatını çox yaxşı oxumalıdır. Daşlı, palçıqlı bir yolda gəzmək çətin olduğu kimi, bu həyatın maneələrində, imtahanlarında irəliləmək üçün də oxumağa, öyrənməyə ehtiyac vardır. Bilik heç vaxt tək olaraq kifayət deyil. Alınan təhsil tətbiq olunduqda dəyər qazanır. Evdə, iş yerində, məktəbdə, cəmiyyətdə tətbiq olunan biliklərin nəticəsində həm bu dünya, həm də axirət üçün rahatlıqdan bəhs etmək olar.

"İnsana sədaqət yaraşar görsə də ikrah,
Köməkçisidir doğruların Həzrəti Allah"

Beyti ilə Ziya Paşa bütün mənfiliklərə baxmayaraq insanın sədaqətdən ayrılmamalı olduğunu nə gözəl ifadə edir...

(İnsan həyatda can yandırıcı hiylələrlə, pisliklərlə qarşılaşsa belə, Allaha və vətəninə sədaqətdən əl çəkməməlidir, Allah doğruların köməkçisidir).

Bəlkə də bu qloballaşan dünyamızda və texnologiya dövründə; ağıllı mobil telefonlarımız, internetdə məlumat bataqlığından, şəhərin səs-küyündən könüllərimizin sədaqət kitabının sakit və rahat səhifələrinə bir səfər etməyə ehtiyacı var. Ruhumuzun rahatlığı üçün bu həyatın qarışıqlığında dini hökmlərə riayət etmək, özümüzlə baş-başa qalmaq, yalnızlığın içində *"Bəli, tək deyiləm. Nə xoşbəxtəm ki, Rəbbim var!"* - deyə bilmək rahatlığa doğru gözəl bir səfərin ilk addımı olacaq.

Rahatlıq, bəlkə də bu dövrdə insanın ən çox ehtiyacı olan duyğudur. Bəlkə də bizləri narahat edən əhdə vəfasızlığımızdır. Sədaqət günəşinin ürəyimizi tam isidə bilməməsinin əskikliyini yaşayırıq bəlkə də... Bu gün insanlığın ən çox ehtiyac hiss etdiyi şey Həzrət Əbu Bəkirin (r.a.) qəlbindəki kimi sədaqətdir...

Rəbbimiz bizi həm dünyada, həm də axirətdə sadiqlərlə bərabər etsin...



Fatimə ZƏHRA

Əbədi Zənginlik
ƏDƏB

Ədəb İslam nəzərində o qədər əhəmiyyətlidir ki, onu qısaca tərif etmək üçün "İslam, ədəbdən ibarətdir" deyə bilərik. Eyni zamanda, Allah və Rəsuluna itaət edilərək edilən işlərin hamısı ədəbdəndir. Qadağalar isə ədəbə müxalif olanlardır. Ağıl və hikmət nəzəri ilə baxıldığında Qurani-Kərimdə ən çox üzərində durulan mövzunun ədəb və əxlaq olduğu görülür. Ondakı tarixi hekayələr belə ədəb və əxlaqı, yəni davranış mükəmməlliyini təlqin etmək məqsədilə zikr edilmişdir. Həzrəti Mövlana bunu nə gözəl ifadə edir:

"Gözünü aç, Allahın kəlamına başdan başa bir bax! Ayə-ayə bütün Quran ədəb təlimin-dən ibarətdir".

Qullarına ədəb və incəliyi tövsiyə edən Cənabı-Haqq bunun ziddi olan çirkinliklərdən də nəhy edir. Ayəyi-kərimədə belə buyurulur:

"Həqiqətən, Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi (kasıb qohum-əqrəbaya şəriətin vacib bildiyi tərzdə əl tutmağı) buyurur, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. (Allah) sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!"(ən-Nəhl, 90)

Digər bir ayəyi-kərimədə də Cənabı-Haqq ədəbli qullarını əfv edəcəyini müjdələyərək belə buyurur:

"(O yaxşılıq edənlər ki) kiçik günahlar (xətalar) istisna olmaqla, böyük günahlardan və rəzil işlərdən (zinadan) çəkinərlər. Həqiqətən, sənin Rəbbin çox bağışlayandır..."(ən-Nəcm, 32)

Peyğəmbərimiz əshabı-kirama hər cür gözəl ədəbi təlim etmişdir. Bu səbəbdən dinimizin insan həyatının hər sahəsi ilə əlaqəli üsulu və ədəb qaydaları mövcuddur. Bunların bəzisi fərz, bəzisi sünnə, bəzisi də mübahdır. Hər biri insanlıq şərəfini qorumaq, belə ki, dünya və axirət səadətini təmin etmək üçün təyin və təsbit edilmişdir.

Bir sultan və ya yüksək mövqe sahibi birinin hüzurunda olanlar, çöldəki kimi davrana bilməz, olduqları yer və mövqeyə uyğun ədəbli davranışlar sərgiləməyə səy göstərərlər. Əhlullah da hər an Allahın hüzurunda

olduqları idrakı ilə yaşadıqlarından ədəbə çox etina edərlər. Beləcə ədəb halı onların bütün həyatlarına təsir edər. Çünkü onlar hər zaman və məkanda Haqqın hüzurunda olduqlarını pərdəsiz olaraq görən və dəlilsiz olaraq hiss edən arif könüllərdir. Yəni onlar:

“…Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!...”(əl-Hədid, 4) sirrinin aşinaları olaraq hər anlarını Allah ilə bərabərlik şüuru ilə yaşayarlar.

Cənabı-Haqq:

“Və o kəslər ki, namazlarını (layiqincə) hifz edərlər”(əl-Məaric, 34)

“O kəslər ki, daim namaz qılarlar”

(əl-Məaric, 23) buyurur.

Həzrəti Mövlana bu ayələrə məcazi bir məna verərək belə deyir:

“Qul namazdakı halını namazdan sonra da mühafizə edər. Beləcə bütün bir ömrünü ədəb və xuşu ilə, dilini və könlünü mühafizə edərək keçirər. Bu, gerçək aşiqlərin, Haqq dostlarının halıdır ... “

Ədəbin əsası imanın yetkinliyindən başqa bir şey deyildir. Ədəb heyvani sifətlərdən xilas olub insani üstünlüklərlə zinətlənməkdir. Gerçəkdə müsəlman olmaq da İslam ədəbinə sahib olmaqdır, ülvi gözəllikləri hal və davranışlara əks etdirmək və onları davamlı hala gətirə bilməkdir. Bu da ancaq insanın ehsan duyğusu ilə, yəni davamlı bir surətdə ilahi kameralar altında olduğu şüuru ilə yaşamasına bağlıdır....

Ədəb eyni zamanda hər ədəbsizin ədəbsizliyinə də səbir və təmkin göstərə bilməkdir. Ədəb hər işin üsuludur. Üsulsuz vüsul (vüslət, məqsədə çatmaq) mümkün olmadığından, ədəb nöqsanlığı ilə də həqiqi insanlıq səviyyəsinə çatmaq mümkün deyil. Çünki insan bədəni ilə deyil, əsl yüksək ruhi təmayülləri ilə insandır.

Ədəb ağlın və fəzilətin xaricə əks edən görünüşüdür. Çünki din, ədəb və davranış həmişə ağıl və fəzilətin nəticələridir.

Möminin ədəb və əxlaqının gözəl olması, imanının da qüvvətli olduğunun bir göstəricisidir. Yəni ədəb eyni zamanda kamil imanın bir aynasıdır.

Ədəb maddi və mənəvi bəlalardan mühafizə edən bir sığınacaqdır. İbni Abbas -radiyallahu anh- belə buyurur:

“Namusumuzu mühafizə edən qala ədəbdir”.

Ədəb kamil insanların məhəbbət xərcidir. Ədəb insana həyatı və içində yaşadığı cə-miyyəti sevdirən sadə bir keyfiyyətdir. Buna əsasən böyüklər, “İnsanın ədəbli olması, bütün dünya sərvətindən daha xeyirlidir” - buyurmuşdur.

Ədəb şeytanın düşmən olduğu bir xüsusdur. Bu səbəblə övladına ədəb öyrətməyən ana-ata şeytanı və düşmənlərini sevindirmiş olur.

Ədəbin ən fəzilətlisi insanın həddini bilərək sərhədi aşmaqdan çəkinməsidir. Bu səbəblə, “Üləma yanında dilinə, övliyanın yanında qəlbinə, süfrədə əlinə, qonaq gedərkən gözünə sahib ol!”- deyilmişdir...

Ədəb insanı maddi və mənəvi hər cür bəladan mühafizə edir. Şair nə gözəl deyib:

Ədəb bir tac imiş nuri Hüdadan

Gey ol tacı, əmin ol hər bəladan…

Buna görədir ki, əvvəllər təkkə və dərgahların divarlarını bəzəyən xəbərdarlıq lövhələrindən biri də “Ədəb ya hu!” idi.

Ənəs ibn Malik -radiyallahu anh-: “Əməldə ədəb onun qəbuluna işarədir” - demişdir. Yenə Allah dostları: “İbadət insanı cənnətə aparar, ibadətdə ədəb və təzim isə Allaha aparar, Haqqa yaxınlaşdırar” - demişlər.

Bu səbəbdən əxlaqın ən mükəmməli və ədəbin ən üstünü dində ədəb, yəni Allah-Təalaya qarşı göstərilən ədəbdir ki, təsəvvüfün ən mühüm qayəsi də budur. Burada məqsəd xam insanı ehsan duyğusu ilə kamil bir insan halına yüksəldərək Allaha qarşı ədəb sahibi etməkdir.

İbni Abbas -radiyallahu anh- belə buyurur: “Bütün ədəblərin əsası həm rahatlıqda, həm də darlıqda Allah-Təalanın əmrlərinə riayət etmək və qadağalarından da çəkinməkdir”.

Allaha qarşı ədəbdən sonra Onun Rəsuluna göstəriləcək ədəb gəlir. Cənabı-Haqq, xüsusilə Hucurat surəsində və bir çox ayəyi-kərimələrdə möminlərə, Allah Rəsulu -səllallahu əleyhi və səlləm-ə qarşı ədəbi mühafizə etmələrini əmr edir. Bu ədəb ustada, ana-ataya, möminlərə və belə silsilə halında

bütün məxluqata uzanır.

Rəsulullah-səllallahu əleyhi və səlləm-in bildirdiyinə görə:

"Allah-Təala çirkin hərəkətlər edən, çirkin sözlər söyləyən birindən nifrət edər" (Tirmizi, Birr, 62/2002).

Necə ki, ayəyi-kərimədə:

"Möminlər arasında (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir…"(ən-Nur,19) buyrulmuşdur.

Həya və ədəb nöqsanlığı, ağıl, iman və din nöqsanlığından ortaya çıxır. Bu səbəblə ədəbə riayət etməyənlər Allahdan və Rəsulundan uzaq kimsələrdir. Onlar böyük bir məhrumiyyət içindədirlər.

Ədəb gözəl əxlaqın zirvə nöqtəsidir. Allahın bir kimsəyə verdiyi xeyirli və qiymətli varlıq gözəl əxlaqdır (Baxın: İbn Macə, Tibb, 1).

Qiyamət günü tərəzidə ən ağır gələcək savab, yenə gözəl əxlaqdır (Baxın: Əbu Davud, Ədəb, 7/4799).

Allah və Rəsulunun ən çox sevdiyi və axirətdə Peyğəmbərimizə ən yaxın olacaq kəslər də yenə əxlaqı gözəl olan ədəbli kəslərdir (Baxın: Tirmizi, Birr, 71/2018).

O halda gözəl əxlaq cənnətə girmələri üçün insanlara ən çox köməkçi olan bir növ cənnət açarıdır (Baxın: Tirmizi, Birr, 62/2004).

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- insanların ən zərifi, ən gözəl əxlaqlısı və ən çox təbəssüm edəni idi. Çiçəkdən iffətli, güldən həyalı idi. Sözlərində və hərəkətlərində ən kiçik xoş olmayan hərəkət olmadığı kimi, O, xoş olmayan heç bir şeyə də etibar etməzdi. Çöldə, bazarda qışqırıb çağırmağı, yamanlığa yamanlıqla qarşılıq verməyə əsla izin verməzdi. Xətaları bağışlayar, üzünü çevirib səhvləri görməzlikdən gələrdi. Ümmətinin "insanlar arasında, üzdəki gö-zəlliyin timsalı olan "mən" (yəni simanın gözəlləşdirən əlaməti-fariqa) kimi" olmasını istəyərdi (Əbu Davud, Libas, 25/4089).

Səhabələrinin bildirdiyinə görə Allah Rəsulu -səllallahu əleyhi və səlləm- örtüsünə bürünmüş bakirə bir qızdan daha həyalı və ədəbli idi (Buxari, Ədəb, 77).

Sözün özü ədəb, İslamın insanlara təlim etdiyi və son dərəcə əhəmiyyət verdiyi bir xüsusdur. Qızıl və gümüşün zənginliyi gedər, lakin ədəbin zənginliyi əbədidir. Bu səbəbdən müsəlmanlar ədəb qaydalarını yaxşı öyrənməli, onları canlı tutmağa etina göstərməli və başqalarına da şəxsən yaşayaraq nümunə olmalıdırlar .

Ədəbi tərk etmək insanı heyvandan da aşağılara salaraq, nəhayət, həlaka sürüyən böyük bir qəflətdir. Çünki ədəbsizlik dibsiz bir quyu kimidir ki, ora çatmaq olmaz. İnsan getdikcə daha dərinlərə doğru batar, nəfsinin bir istəyini təmin edəndə daha irəli və daha pis bir həva zühur edər. Bu minval üzrə nəfsin arxasında qaçarkən həm maddi, həm də mənəvi məhv olub gedər. İyrənc şayiələrin yayılmasını istəyən kəslər, özləri kimi cəmiyyəti da pozaraq daşıya bilməyə-cəkləri qədər böyük bir günah altına girirlər. Qarşılaşacaqları ilahi əzab isə çox şiddətli və ağrılıdır.

Mövlana (q.s.) belə buyurur:

"Cənabı-Haqdan bizi ədəbli olmağa müvəffəq qılmasını istəyək. Çünkü ədəbi olmayan kimsə Allahın lütfündən məhrum qalmışdır. Ədəbsizin zərəri yalnız özü ilə məhdud qalmaz. Əksinə bütün ətrafı oda verər... "

"Əgər şeytanın başını əzmək istəsən, gözünü aç və gör, şeytanı qəhr edən ədəbdir. İnsanoğlunda ədəb tapılmazsa, o əslində insan deyildir. Çünki insan ilə heyvan arasındakı fərq ədəbdir".

Buna görə də möminlər hər hal və hərəkətlərində ədəb qaydalarına riayət edərək imanın onlara qazandırdığı nəzakət və mədəniyyəti sərgiləməlidirlər. İstər insanlara, istərsə də Yaradana qarşı münasibətində ədəbi əldən buraxmamalıdırlar. Əlinə, dilinə, gözünə, qulağına, qəlbinə, nəhayət, bütün üzvlərinə ədəb həssaslığını hakim qılaraq daim Allahın hüzurunda olduqları şüuru ilə yaşamalıdırlar.

Qeyd: Bu yazıda Möhtərəm Osman Nuri Topbaşın əsərlərindən istifadə olunmuşdur.

Xatirə KƏNGƏRLİ

Son nəfəs həyəcanı

Bir ayə ilə başladı ölümün sirrini açmağım....

"Hər bir kəs (hər bir canlı) ölümü dadacaqdır...." (Əl-Ənkəbut, 29/57)

Və bu ayənin açıqlaması məni bir qədər düşündürdü. Əslində, bu ayədə Rəbbimiz ölməkdən deyil, ölümü dadmaqdan söhbət açır. Demir ki, hamınız öləcəksiniz, deyir ölümü dadacaqsınız. Yəni hər kəsin ölümü fərqli olacaq və yaşantısına görə də dadı olacaq! Bəs, ölümün dadı olarmı? Yaddaşıma həkk olunmuşdu həm ayə, həm də açıqlaması.

Görəsən, mənim ölümüm hansı dadı verəcək? Təfəkkür üfüqümdə süzülürdü bu hikmətlər, amma həqiqətinə çata bilmirdim.

Köməyimə hər gün ərəbcə oxuduğum, amma məalına çox az baxdığım Mülk surəsi gəldi. **"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan odur"**..

Çox qəribə gəldi niyə burada Rəbbimiz birinci ölümü vurğulayır. Axı biz həyatı çox sevirik. Ölüm bizim üçün dəhşət, vəhşətdir.. Hikmətini anlamağa çalışdım. Ölüm və həyatın hər ikisini yaradan Rəbbimizdir. Və sıralamada birinci ölümün yaradılışından bəhs olunur. Bir cədvəl çəkdim, ölümü və həyatı anlamağa çalışdım: ölüm - fanilikdən qurtuluş, əbədiyyətə giriş, şeytanın və nəfsin aramsız hücumlarına son, əbədi rahatlıq, imtahanların bitdiyi yer və daha nələrə, nələrə son.... Nələrə, nələrə başlanğıc...

Həyatı anlamağa başladım. Ağlamaq tutdu məni. Nə yaman ağır yüklərimiz varmış, Allahım. Fərqində deyilik. Nə böyük məsuliyyətin altındayıq. Anlamırıq....

Nə böyük vəzifələrimiz, hədəflərimiz var. Qəflətdəyik, qəflətdəyik, qəflətdə... Hamımız böyük bir aldanış içərisindəyik.... Aman ya Rəbbim, həyatı anlaya bilmirəm... Hər anımız peşmançılıq, hər anımız qəflət... Amma ölüm gözəl!!!


Peyğəmbərimizə qonşu olmaq ən yaxşısı... Amma belə bir ölümə nail olmaq üçün hə-yatın hər anını, hər dəqiqəsini dəyərləndirib yaşamaq lazımdır... Ən qiymətli şey zaman və mənəvi halımızdır. Mənəvi halımız imkan verirmi ki, şəxsi ailə qayğılarından azad olub ümməti-Muhəmmədin dərdlərilə dərdlənək. "Bir ovuc yetişmiş insan bir milləti xilas edə bilərmi?" Ən azı bir tək özümüzü yetişdirməyə nə qədər səy və vaxt sərf edirik.

Ölüm bu şərtlər və bundan da artıqları daxilində dəyərlidir və gözəldir, dostlar!!! Amma bütün bunlara baxmayaraq, bir ölüm qorxusu vardı içimdə... Xüsusən son nəfəs həyəcanı.

Yenə də Rəbbimin ayələri nurlandırır qaranlıqlarımı: **"Şübhəsiz, Rəbbimiz Allahdır!" deyən, sonra da (sözündə) düz olan kəslərə (ölüm ayağında) mələklər nazil olub (belə deyəcəklər) "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan cənnətlə sevinin...."** (Fussilət, 41/30)

Bundan böyük müjdə, bundan böyük lütf olarmı? Olar. Bu, Rəbbimizin rəhməti və mərhəmətidir.

Və son olaraq Rəbbim bizləri ölümün sirrinə vaqif olaraq, ölmədən əvvəl ölənlərdən eyləsin! Amin!



Nəzrin HÜSEYNOVA

Hz. Aişə
İlahi bəraət

Hz. Aişə anamıza çox təsir edən və həyatının dönüş nöqtəsi olan bir hadisə vardır ki, islam tarixi kitabları onu İfq (iftira) hadisəsi adlandırmışlar. Aişə anamız həmin vaxt günlərlə ağlamış və evdən bayıra çıxmamışdı. Münafiqlərin rəisi olan Abdullah ibn Übey ibn Səlulun quraşdırdığı hadisə qısaca belə cərəyan etmişdir:

Hicrətin 6-cı ili idi. Peyğəmbərimiz (s.ə.s.) Bəni Müstəliq qəzvəsinə hazırlaşırdı. Əvvəlki səfərlərində də olduğu kimi yanında gedəcək xanımını seçmək üçün püşk atmış və püşkdə Aişə anamız çıxmışdı. Döyüş müsəlmanların zəfəri ilə başa çatdı. Ordu Mədinəyə doğru qayıdırdı. Mədinəyə yaxın bir yerdə fasilə verildi. Bu əsnada Aişə anamız dəvədən düşərək ehtiyacını qarşılamaq üçün ordugahdan uzaqlaşdı. Yenidən karvana döndükdə boyunbağısının düşdüyünü gördü. Getdiyi yerlərdə onu axtarmağa başladı. Həmin vaxt ordu çoxdan yola düşmüşdü. Onun geridə, dayandıqları yerdə qalabiləcəyi heç kimin ağlına gəlməmişdi. Çünki dəvədə oturduğu yerin üzəri örtülü idi. İçərisində kiminsə olub-olmadığı kənardan baxdıqda başa düşülmürdü. Ordu səhərin ilk saatlarında Mədinəyə çatdı. Möminlərin anasının mindiyi dəvə evinin qarşısında yerə çökdürüldü. Oturulan yer də yavaşca endirildi. Lakin böyük bir heyrət və çaşqınlıqla Aişə anamızın orada olmadığını gördülər. Rəsulullah (s.ə.s.) və əshabı bir müddət narahatlıqla gözlədilər, onu axtarmağa çıxan səhabələr də oldu. Nəhayət, onun bir dəvədə gəldiyini, dəvənin yüyəninin də Səfvan ibn Müəttaləs-Süləmi adında bir səhabədə olduğunu gördülər. Səfvan ordunun dayandığı yerlərdə unudulan əşyaları yığmaqla vəzifələndirilmiş bir səhabə idi. Onları belə vəziyyətdə görən münafiqlərin rəisi Abdullah ibn Übeyibn Səlul Aişə anamız haqqında iftira və dedi-qodu yaymağa başladı.

Hadisənin bundan sonra necə davam etdiyini Aişə anamızdan dinləyək:

"Mədinəyə gəldikdə mən bir ay xəstələndim. İnsanlar iftira atanların sözlərini çoxaldıb yayırlarmış. Mən bunları bilmirdim, sadəcə bu zaman mənə şübhə verən bir şey var idi, o da Peyğəmbərdən (s.ə.s.) başqa vaxt xəstələndikdə gördüyüm şəfqəti bu dəfə görmürdüm.Yanıma gəlir, salam verir və:

- Xəstəmiz necədi? – deyirdi.

Mənim heç bir şeydən xəbərim yox idi, nəhayət ki, yaxşılaşmağa doğru gedirdim. Bir gecə, Mistahın anası ilə birlikdə ehtiyaclarımızı qarşıladığımız yerlərdən biri olan Mənası tərəfə çıxmışdıq. Biz bura gecədən-gecəyə gələrdik. Bu adət ehtiyacımızı evlərimizin yaxınlığında qarşılamadan öncə idi. Mən Mistahın anası ilə oraya gedərkən ayağı çarşabına ilişib yıxılmışdı. Ərəblər arasında pis

hadisə və fəlakət baş verdikdə deyilən:

- Düşmənim həlak olsun! - bəd-duası yerinə:

- Mistah həlak olsun! – deyə oğluna bəddua etdi. Mən ona:

- Necə də pis danışdın! Bədirdə döyüşməyə hazır olan bir adamı söyürsən? – dedim.

Bunu eşidən qadın mənə:

- Sən gəzən şayiələri eşitməmisən? – dedi və mənə böhtan atanların sözlərini söylədi. Bunlardan sonra xəstəliyimin üstünə xəstəlik gəldi. Evimə qayıtdıqda Peyğəmbər (s.ə.s.) yanıma gəldi, salam verdi və:

- Xəstəmiz necədir? – deyə soruşdu. Mən də:

- Ey Allahın Rəsulu, mənə ata-anamın yanına getməyə icazə ver! – dedim.

Mən bu xəbərin əslini ana-atamdan öyrənmək istəyirdim. Sonra Peyğəmbər (s.ə.s) mənə icazə verdi. Mən də valideynlərimin yanına getdim. Anam Ümmü Rumana:

-İnsanların danışdıqları bu sözlər nədir belə? – deyə soruşdum. Anam:

- Qızım pis olma, sən özünü və sağlamlığını düşün. Allaha and olsun ki, bir qadın sənin kimi gözəl olsun, ərinin sevimlisi olsun, amma haqqında dedi-qodu olmasın, bu çox nadir görülər, – dedi.

Mən də:

- Sübhanallah! Həqiqətən, insanlar bu sözləri söyləyir? Düzü heyrətverici bir şeydir! – dedim.

Mən o gecə atamın evində qaldım.

Allah Rəsulu həmin səhər Əli ibn Əbu Talib və Üsamə ibn Zeydi yanına çağırmışdı. Vəhy gecikdiyi üçün ailəsindən ayrılma mövzusunda onlarla məsləhətləşmişdi. Üsamə Peyğəmbərin (s.ə.s.) ailəsinə (xanımına) olan sevgi və hörməti Ona (s.ə.s.) danışdı. Sonra da:

-Ey Allahın elçisi, onun haqqında xeyirdən başqa bir şey bilmirik, – dedi.

Əli ibn Əbu Talib isə:

- Ey Allahın Rəsulu, Allah sənə dünyanı dar etməyib. Ondan başqa bir çox qadın var. Lakin onun (Aişə anamızın) cariyəsi Bərirədən də soruşun. O, düzünü sənə deyər, – demişdi.

Peyğəmbərimiz Bərirəni çağırıb soruşdu:

- Ey Bərirə, sən xanımın Aişədə şübhəli bir vəziyyət gördünmü?

Bərirə də:

- Allaha and içirəm ki, mən xanımımda əsla şübhəli bir hal görmədim.

Bundan sonra Rəsulullah məscidə getdi, ayağa qalxdı və dedi:

- Ailəm haqqında mənə əziyyət verən bir şəxs (iftiranı başladan Abdullah ibn Ubey ibn Səlulu nəzərdə tutur) haqqında mənə kim yardım edər? Allaha and içirəm ki, mən ailəm haqqında xeyirdən başqa bir şey bilmirəm.

Hz. Aişə anlatmağa davam edir:

"Mən o gün ancaq ağladım. Nə gözümün yaşı dindi, nə də gözümə yuxu getdi. Bu zaman Rəsulullah içəriyə girdi, yanımda oturdu və dedi:

-"Ey Aişə, mənə sənin haqqında bəzi sözlər çatıb. Əgər sən bu deyilənlərdən uzaqsansa, tezliklə Allah səni təmizə çıxarar. Yox əgər belə bir günaha yaxınlaşmısansa, Allahdan əfv dilə və Allaha tövbə et. Çünki qul günahını etiraf və tövbə etdikdə, Allah da onu bağışlayar",- buyurdu.

Hz. Aişə:

Allaha and olsun ki, bu vəziyyətdə sizin və mənim üçün bir nümunə tapa bilmirəm. Ancaq Yusif Peyğəmbərin atasını örnək olaraq görürəm. O, oğullarına:

"...(Yəqub) dedi: Xeyr (heç də dediyiniz kimi deyildir), sizin öz nəfsiniz sizi bu işə sövq etmişdir (çirkin əməlinizi sizə gözəl göstərmişdir). Mənə yalnız gözəl (tükənməz, dözümlü) səbir gərəkdir. Dediklərinizdən (Yusif barəsində dediklərinizin yalan olduğunu sübut etməkdən) ötrü ancaq Allahdan kömək diləmək lazımdır!" (Yusif surəsi, 18)

Mən Allahın məni təmizə çıxaracağına inanırdım. Rəsulullah ayağa qalxmamışdı və oradakıların heç biri də otaqdan çıxmamışdı. Nəhayət, Rəsulullaha vəhy endirildi. Vəhyin ağırlığından tərləməyə başladı. Bir az sonra gülərək mənə bu sözləri söylədi:

-"Ey Aişə! Allaha həmd et. Allah səni təmizə çıxardı.

Uca Allah mənim bəraətim haqqında Nur surəsinin 11-22-ci ayələrini endirdi.

Osman Nuri TOPBAŞ

Könül İqlimindən İncilər

Rəbbimiz quluna ikram və lütf etdiyi hər neməti, ona əbədi səadət sərmayəsi olması üçün ehsan etmişdir. Qulun vəzifəsi bu nemətləri xəsislik və israf etmədən, Haqqın rizası istiqamətində istifadə etməkdir. Çünki Cənabı-Haqq israf edənləri sevmədiyini belə bildirmişdir:


"…Yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz!" *(əl-Əraf, 31)*

"…Şübhəsiz ki, Allah (Ona şərik qoşmaqla, böhtan atmaqla) həddi aşanı, yalançını doğru yola müvəffəq etməz" (Ğafir, 28).

İsraf alçaldıcı hissi boğmaq və etibar satın almaq üçün maddi imkanlarla özünü göstərmə səyi olaraq ifadə edilsə də, əslində, bu tərif israfın ilk ağla gələn məhdud mənasıdır. Halbuki israf insanoğlunun həddini aşdığı hər xüsusiyyətini əhatə edən geniş bir mənanı ifadə edir. İyas (r.a.) bu həqiqəti yığcam ifadə ilə nə gözəl dilə gətirmişdir:

"Allahın əmirləri xaricinə çıxan hər şey, israfdır".

Bu səbəbdən:



"…Yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz!" (əl-Əraf, 31) "…Şübhəsiz ki, Allah (Ona şərik qoşmaqla, böhtan atmaqla) həddi aşanı, yalançını doğru yola müvəffəq etməz" (Ğafir, 28).

Varlıqlar içində ən gözəl bir surətdə yaradılıb, ilahi hörmət ilə "Haqqa qulluq" kimi müstəsna bir şərəfə nail olan insanın, nəfsani arzuların əsarəti altında bir ömür sürməsi, qulluğun israfıdır.

Nəzərgahi-ilahi olmaq kimi uca bir şərəfə nail olan istedadla yaradılan, iman və əxlaqın bir növ mühafizəsi ürəyin, insanı Haqdan uzaqlaşdıran qəflət və günahlarla çirklədilməsi, ürəyin israfıdır.

İnsana ehsan edilən ən qiymətli nemət olan zamanı, Cənabı-Haqqın rizasına vəsilə olacaq bir keyfiyyətdə istifadə etməyib axirət səadətinə sərmayə etməmək, vaxtın, başqa sözlə, ömrün israfıdır.

"Əl-Vədud" ismi-şərifi ilə sevginin qaynağı olan Cənabı-Haqqa və bir iman göstəricisi olaraq sevdiyimiz Rəsulullaha (s.ə.s.) verəcəyimiz məhəbbətin, gizli və açıq hər fürsətdə Allah və Rəsuluna düşmənçilik edən kəslərə istiqamətləndirilməsi, məhəbbətin ən faciəvi israfıdır.

Belə ki, Təbbət surəsi də layiq olana nifrət

göstərilməsinin bariz bir misalıdır.

Hər biri misilsiz bir qiymətə malik olan nəfəsləri, Qurani-Kərim tilavəti və daima zikr ilə əhya etmək varkən, ***"Onlar ki, boş və faydasız şeylərdən üz çevirirlər"*** (Əl-Muminun, 3) ayəyi-kəriməsinin ziddinə, insanın əbədi səadətinə yaramayacaq boş həvəslər uğruna zay edilməsi, nəfəslərin israfıdır.

Qəmli ürəkləri, yorğun könülləri, çətinlikdən daralmış ürəkləri dincəldən zəkat, sədəqə və yardımları möhtaclara verərkən, eqoizm və mənliyə qapılıb başa vurmaq surətiylə onları minnət altında buraxmaq, xeyrin israfıdır. Ayəyi-kərimədə belə buyurulur:



"Xoş bir söz və günahları bağışlamaq əziyyətlə (minnətlə) verilən sədəqədən daha yaxşıdır. Allah ehtiyacsızdır, həlimdir! Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla (özünü xalqa göstərmək üçün) sərf edən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın…" (əl-Bəqərə, 263-264)

Rəbbimizin bir hidayət rəhbəri olaraq Rəsulunun ürəyinə endirdiyi, oradan da bütün insanlığa elan edilən, Peyğəmbərimizin oxumaqdan doymadığı Qurani-Kərimi layiqli vəch ilə oxuyub anlama səyinə girməmək, əmr və qadağalarını nəzərə almamaq, o ilahi feyz mənbəsinin israf edilməsidir.

Allah-Təala, Qurani-Kərim barəsində israfa düşənlərlə, onun feyzindən gözəlcə istifadə edənləri belə bəyan edir:

"Sonra Kitabı bəndələrimizdən seçdiklərimizə (Məhəmməd ümmətinə) miras verdik. Onlardan kimisi özünə zülm edər (pis əməlləri yaxşı əməllərdən çox olar), kimisi mötədil (pis əməlləri ilə yaxşı əməlləri bərabər) olar, kimisi də Allahın izni ilə yaxşı işlərdə (başqalarını ötüb) irəli keçər (yaxşı əməlləri pis əməllərindən çox olar). Bu (Kitaba varis olmaq) böyük lütfdür!" (Fatir, 32)

Ayəyi-kərimədə, özünə zülm etdiyi bəyan edilən kəslər, Quranın həyat verən əmr və qadağalarına qafil qalaraq ömürlərini hədər edən bədbəxtlərdir. Ortada olanlar, bu ilahi əmrlərə bəzən itaət edib, bəzən laqeyd yanaşan kəslərdir ki, bunların halı sanki nəfsi ləvvamənin əsassızlığını xatırladır. Allahın izni ilə yaxşı işlərdə önə keçənlər isə, Cənabı-Haqqın Qurani-Kərimdəki əmr və qadağalarına böyük bir eşq və vəcd içərisində yerinə yetirməyə cəhd edən, o ilahi kəlamın fəzilətli, ehkamı və əxlaqıyla kamil olan saleh qullardır.

Sözləri və prinsipləri həm öz həyatında, həm də qiyamətə qədər davam edəcək olan ümmətinin həyatında həqiqətən yaşanan Peyğəmbərimizin nurlu izində deyil, ağılları vəhy tərbiyəsi görməmiş, ictimai nizam ilə əxlaq adına ortaya qoyduqları fikirlər, əksəriyyətlə kitabxananın tozlu rəflərindəki kitablarda, sırf bir nəzəriyyə olaraq qalmış filosofların arxasına ilişib boş yerə yorulmaq, ağlın israfıdır.

Küsülü könülləri barışdırmaq, din qardaşlığını qüvvətləndirmək, yaxşılığı tövsiyə edib pislikdən çəkindirmək, daim haqqın və xeyrin müdafiəçisi və katibi olmaq yerinə, boş və mənasız söz söyləmək, könüllərə tikan batırmaq, ən pisi də batilin, şərrin və şeytanın vəkilliyini etmək, lisan nemətinin israfıdır.

İmkan var ikən namazı camaatla qılmamaq, huşla ifa etməmək də, ibadət həyatına aid israflardandır.

Bilməliyik ki, ömrü mənasız keçirmək, yemə-içmə və geyimdə həddi aşmaq, səhhəti lazımsız yerlərdə məhv etmək, təfəkkürü

ruhani mənzərələrə deyil, nəfsani vitrinlərə istiqamətləndirmək, faydasız elmlə məşğul olmaq və elmi nəfsani mənfəətlərə alət etmək də bir israfdır. Hələ təhsildə, övladları sırf dünyəvi istiqbal qayğılarıyla mənəvi tərbiyədən məhrum olaraq yetişdirmək, israfların ən böyüyü olan "insan israfı" dır. Çünki bu, ən böyük həqiqətə qafil qalaraq əbədi səadəti israf etməkdir.

Bir kimsənin tənbəllik edərək ruzisini qazanmağına laqeyd yanaşması və ətrafında olanlardan möhtac hala düşməsi də bir növ israfdır. Çünki hədisi-şərifdə:

"Allah-Təala bəndəsini halal iş arxasınca qaçmaqdan yorulmuş vəziyyətdə görməyi sevər"- buyurulmuşdur (Süyuti, əl-Camius-Sağir, I, 65).

Daha çox ehtiyac sahibləri varkən, şəxsi yaxınlıq hiss etdiyimiz bir kimsəyə ehtiyacından çoxunu vermək də israfdır. Bu səbəblə möhtacların ehtiyac dərəcələrinə görə infaqda üstünlük sırasını təyin etmək zəruridir. Mövlana Həzrətləri bu barədə belə buyurur:

"Nə qədər sərvət sahibləri vardır ki, onların layiq olmayanlara verməmələri, vermələrindən daha xeyirlidir. Buna görə Allahın verdiyi malı, ancaq Allahın əmrinə görə xərclə! Yersiz infaq, üsyankar bir kölənin, guya yaxşılıq edirəm deyə, padşahın malını yol kəsənlərə paylamasına bənzər".

Ayəyi-kərimədə buyurulur:

"(Sədəqə) Allah yolunda canından keçərək (dolanmaq, ruzi qazanmaq üçün) yer üzündə hərəkət edə bilməyən (və ya buna imkanı olmayan) yoxsullar üçündür. Belə şəxslər həyalı olub dilənçilikdən çəkindiklərinə görə nadanlar onları dövlətli hesab edirlər. (Ya Rəsulum!) Sən isə onları üzlərindən tanıyırsan. Onlar heç kəsdən israrla bir şey istəməzlər. Sizin mallarınızdan (bunlara) nə verdiyinizi, şübhəsiz ki, Allah bilir!" (əl-Bəqərə, 273)

İçərisində min aydan daha xeyirli olan Qədir gecəsi olan Ramazani-Şərifin səhərlərini oyaq bir könüllə ifa edilən təhəccüd, təfəkkür, zikr və Quran tilavətləri ilə əhya etməyən, gündüzlərini könlü Haqqa verərək edilən ibadət, infaq və əməli-salehlərlə abad etməyən, icabət saatı olan iftar vaxtlarını, istiğfar, dua və bir orucluya iftar etdirə bilmək dincliyi ilə keçirməyən, axşamlarını da təbdili-hərb üzrə əda edilən təravih namazları ilə diriltməyən kəslər, Ramazani-Şərif nemətini israf etmiş olurlar. Ramazanın gün və gecələrini israf edənlər üçün isə, Cəbrayılın (ə.s.) bu xəbərdarlığı kifayətdir:

"Ramazana çatıb günahları əfv edilməyən kimsə rəhmətdən uzaq olsun!" (Hakim, IV, 170/7256)

İnsanlıq, ilahi həqiqətlərdən uzaqlaşdıqca; vicdan, insaf və ədəbə, şəfqət və mərhəmətə, səmimiyyət və fədakarlığa, nəhayət, insanı əşrəfi-məxluqat edən bütün fəzilət və uca xüsusiyyətlərə də vida etməkdədir. Bəlkə bundan daha hüznlü olanı isə, özünü "dindar" olaraq görən müsəlmanlardan da, dövrümüzdə yayılmış olan israf və güc nümayişi xəstəliyinə tutulub möhtaclara biganə qalanların mövcudluğudur.

Halbuki Cənabı-Haqq, bizə Tövbə surəsinin 100-cü ayəsində mühacir və Ənsarın izindən gedən "ehsan sahibləri"ndən olmağımızı təlqin edir. Yəni Allah Rəsulunun nəbəvi tərbiyəsi altında yetişən seçkin nəsli özümüzə nümunə almağımız lazım olduğunu bəyan edir. Necə ki, lüks, israf, saçıb sovurmaq, güc nümayişi və doyumsuzluq kimi çirkin hallar səhabə nəslinin əsla tanımadığı bir həyat tərzi idi. Onlar özləri üçün kifayət miqdarına qənaət edib ehtiyacları olandan artığını, hətta çox zaman öz möhtac olduqlarını din qardaşları ilə paylaşmağı ən böyük zövq və ləzzət bilən yüksək şəxsiyyətlərdir.

Xülasə israf, həyatın hər mərhələsində özünü göstərən bir zehniyyət və davranış pozuqluğudur. İnsana bəxş edilən maddi-mənəvi nemətlərin israf edilməsi isə, əbədi səadət sərmayəsini ziyan edərək axirətdə iflasa sürüklənmək deməkdir.

Rəbbimiz bizi pisliklərdən və axirətimizi məhv edən israflardan mühafizə etsin. Həyatımızı razılığı istiqamətində yaşaya bilməyi lütfi-kərəmi ilə ehsan etsin. Amin!

Aygün MƏMMƏDZADƏ



ƏL-BASİR

Əl-Basir (c.c.) hər şeyi görən, hər şeyin həqiqətini bilən deməkdir. Əl-Basir isminin sahibinə heç bir şey gizli qalmaz, edilən hər şeyi bir-bir görüb mühafizə edən Odur.

"Göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Odur. O, yerə girəni də, (yerdən) çıxanı da, göydən enəni də, (göyə) qalxanı da bilir. Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!" (əl-Hədid, 4)

Qurani-Kərimdə "Basir" adı, 4 fərqli mənada, "sezən", "gözüylə görən", "qəti dəlil sayəsində həqiqəti dərk edən" və "ibrət gözü ilə baxan" mənalarında istifadə edilir.

İnsan oğlu Allahın Basir adının təcəllisi sayəsində görür.

Allahın görməsi isə bizim idrakımızın fövqündədir. Peyk gözlər düzəldib, dünyanı kosmosdan müşahidə etməyi bacaran müasir insan yalnız təfəkkür edərək Rəbbinin necə gördüyünü düşünə bilər.

İnsan ancaq içində olduğu mühitdə görə bilər. İnsanın görməsi üçün gözə, göz nuruna, kənardan düşən işığa və müəyyən bir məsafəyə ehtiyacı var. Bir anda ancaq diqqətlə baxdığı müəyyən şeyi səthi olaraq görür. Məsələn, öz əlini şəklən görür, lakin içindəki sümükləri, oynaq yerlərini, damarları və damarların içində axan qanı görə bilməz. Aləmlərin Rəbbi bizi və əbədiyyətə qədər yaradacağı bütün məxluqatı hər halı ilə görür.

"Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cismlikdən uzaqdır), (hər şeydən) xəbərdardır!" (əl-Ənam, 103)

Hz. Peyğəmbərin (s.ə.s.) ifadəsində ehsan haqqında belə buyurulur: "(Ehsan) Sanki Allahı görürmüş kimi ibadət etməkdir. Hər nə qədər sən Onu görməsən də O səni görür". Bəli! Biz gözlərimizlə əşyanı gördüyümüz kimi qəlb gözümüzlə də, yəni bəsirətimizlə bu həqiqətləri görərik. Lakin işıq olmadan gözün əşyanı görməməsi kimi qüdsi nurdan məhrum qalaraq varlıqların həqiqətini və iman gerçəyini də görmək imkansızdır. İlahi nurla baxmasaq bəsirət dediyimiz qəlb gözümüz kor olar. Bəsirətdən məhrum ağıl isə əsla mükəmməl deyil. Çünki əsəri görüb sənətkarı görməmək əbədi aləm üçün yaradılan insana heç bir fayda verməz.

Bəsir olan Allah hər birimizə yaşadığımız hər anın ilahi müşahidə altında olduğunu dərk etdirsin. Rəhmət nəzərini üzərimizdən əskik etməsin. Amin!

Prof. dr. Necdet TOSUN

Hz. Əbu Bəkir (r.a)

Hz. Əbu Bəkir miladi təqvimi ilə 573-cü ildə doğulmuş, hicrətdən 13 il sonra Mədinədə 634-cü ildə vəfat etmişdir. Qəbri, Məscidi-Nəbəvidə, Peyğəmbərimizin (s.ə.s.) yanındadır. Kişilər içərisində Peyğəmbərimizə (s.ə.s.) ilk inanan odur. “Siddiq”, yəni Peyğəmbəri doğrulayan, təsdiq edən ləqəbi ilə tanınır. Peyğəmbərimizin Məkkədən Mədinəyə hicrəti əsnasında Hz. Əbu Bəkir ona yol yoldaşı olmuş-du. Bu yolçuluqda Sevr mağarasında bir müddət bərabər olduqları üçün “Yari Gari Nəbi”, yəni “Hz. Peyğəmbərin mağara dostu” deyə anılır.

Hz. Əbu Bəkir Peyğəmbər sevgisində fani olmuş bir insandı. Bir gün Kəbədə insanları Allah və Rəsuluna iman etməyə çağırmışdı. Buna hirslənən müşriklər Hz. Əbu Bəkirlə möminlərin üzərinə gedib on-ları döyməyə başladılar. Hələ fasiq Utbə Hz. Əbu Bəkirin üzərinə çıxıb tapdaladı, üzünü dəmir dabanlı ayaqqabıları ilə təpiklədi. Hz. Əbu Bəkirin hər tərəfi qan içində qaldı. Qəbiləsi Teymuroğulları Hz. Əbu Bəkiri müşriklərin əlindən çətinliklə qurtarıb huşsuz halda evinə gətirdilər. Ölməyindən çox qorxurdular. Hz. Əbu Bəkir ancaq axşama özünə gələ bildi və ilk olaraq min bir əziyyətlə:

“- Rəsulullah necədi, yaxşıdı?” – deyə soruşdu. Anası Ümmül-Xeyr:

“- Bir şey ye, iç!” – deyə israr edir, Əbu Bəkir (r.a.) isə sanki onu heç eşitmirdi:

“- Rəsulullah nə edir, nə haldadır?” – deyə soruşurdu. Gecə olduqda çətinliklə və gizlicə Ərkamın evinə gedib Rəsulullahı görənə qədər heç bir şey yeyib içmədi. Peyğəmbərimizi gördükdə o dəqiqə dizlərinə qapanıb:

“- Anam-atam sənə fəda olsun, ya Rəsulallah! Mənim heç bir çətinliyim yoxdur. O xəbis, fasiq məni bir az incitdi, o qədər!” – dedi.

Müsəlmanlar Məkkədən Mədəniyə hicrət etməyə başlayanda Hz. Əbu Bəkir də hicrət üçün Peyğəmbərimizdən izin istədi. Rəsulullah (s.ə.s.) ona tələsməməsini, Allahın ona bir



dost tapacağını söylədikdə, Hz. Peyğəmbər ilə birlikdə hicrət etmə şərəfinə nail olacağını anlayaraq hazırlıq etməyə başladı. Bu danışıqdan 4 ay sonra Rəsulullah (s.ə.s.), Qureyşlilər Onu öldürməyə qərar verdikdə, Əbu Bəkirin evinə gələrək Mədinəyə hicrət edəcəklərini söylədi. O gecə müşriklər tərəfindən evi əhatəyə alınan Hz. Peyğəmbər yatağına Hz. Əlini yatıraraq Əbu Bəkir ilə birlikdə Məkkədən çıxıb Sevr mağarasına doğru hərəkət etdilər. Rəsulullah (s.ə.s.), onları təqib edən müşriklərin mağaranın ağzına qədər gəlməsinə görə qorxuya düşən Hz. Əbu Bəkiri təsəlli edərək müşriklərin onlara zərər verə bilməyəcəklərini söylədi (Müslim, Fəzailüs-Səhabə, 1). Daha sonra nazil olan və Əbu Bəkirin bu kədərini dilə gətirən ayəyi-kərimədə Rəsulullahın (s.ə.s.) onu, **"Kədərlənmə, Allah bizimlədir"** (ət-Tövbə, 9/40) deyə təsəlli etdiyi ifadə edilir. Hz. Əbu Bəkir bu xüsusi vəziyyəti səbəbi ilə Türk və İran ədəbiyyatında "yarı gar" (mağara dostu, can yoldaşı) ifadəsi ilə anılmışdır.

Hz. Əbu Bəkir bir neçə dəfə İslam ordusunu təchiz etmək üçün böyük hədiyyələr vermiş, Təbük döyüşündən əvvəl sərvətinin hamısını Peyğəmbərimizə gətirib Allah yolunda bənzəri olmayan bir infaq nümunəsi sərgiləmişdir. Peyğəmbərimizin:

"-Ailənə nə qaldı, Ey Əbu Bəkir?" –sualına da:

"-Onlara Allah və Rəsulunu saxladım"- qarşılığını verdi (Əbu Davud, Zəkat, 40; Tirmizi, Mənakıb, 16).

Bir gün Allah Rəsulu (s.ə.s.) yanındakı səhabələrə:

"-İçinizdə bu gün kim orucludur?"

"-Bu gün kim bir cənazə namazında iştirak etdi?"

"-Bu gün kim bir yoxsulu doyurdu?"

"-Bu gün bir xəstə ziyarətində oldunuzmu?"- deyə suallar verdi. Bunların hamısına da Əbu Bəkir (r.a.) müsbət cavab verdi. Bundan sonra Allah Rəsulu belə buyurdu:

"-Kim bu saleh əməlləri bir araya gətirərsə, o mütləq cənnətə girər" (Müslim, Fədailus-Səhabə, 12).

Hz. Əbu Bəkir kimsə onu mədh edincə belə deyərdi:

"Allahım, sən məni məndən daha yaxşı tanıyırsan. Mən də özümü onlardan daha yaxşı tanıyıram. Allahım, məni onların zənn etdiyindən daha xeyirli eylə! Onların bilmədiyi xətalarımı bağışla, söylədikləri sözlər səbəbi ilə də məni hesaba çəkmə".



Hz. Əbu Bəkir gördüyü yuxuları Rəsulullaha danışır, bəzən Hz. Peyğəmbərin və ya digər səhabələrin yuxularını onun hüzurunda şərh edir, hadisələr və veriləcək qərarlar üzərində dəyərləndirmələr edirdi (Buxari, Eymən vən-nuzur, 9, Təbir, 28, 29, 30, 47).

Hicrətin 11-ci ili, Səfər ayının son həftəsində (may, 632-ci il) xəstələnən Hz. Peyğəmbər (s.ə.s.) əshabına etdiyi danışığında, Allah-Təalanın bir qulunu dünya ilə öz yanında olandan birini seçməkdə sərbəst olduğunu, o qulun da Allahın yanında olanı seçdiyini söylədiyində Hz. Əbu Bəkir haqqında danışılan insanın Allah Rəsulu olduğunu anladı və ağlamağa başladı. Rəsulullah onun susmasını istədi və Əbu Bəkirin qapısı xaric, məscidin həyətinə açılan bütün qapıların örtülməsini əmr etdi.

Bunun səbəbini açıqlayarkən İslamiyyətdə ondan daha faydalı birini tanımadığını, insanlar arasında bir dost seçsə bunun Əbu Bəkir olacağını söylədi. Namazı qılmayacaq qədər xəstələndikdə, namazı Əbu Bəkrin qıldırmasını istədi.

Hz. Peyğəmbərin (s.ə.s.) vəfatı zamanı hər kəs çaşmışdı. Hz. Ömər belə qılıncını çəkərək "Kim Muhammədə öldü desə boynunu vuraram", şəklində reaksiya vermişdir. Amma Əbu Bəkirə (r.a.) sükunət və sahv halı (özünə gəlmək) qalib gəldiyi üçün əvvəlcə Allah Rəsulunun üzündəki örtünü qaldırıb baxdı, sonra: "Ölümün də həyatın kimi gözəldir. Sən iki dəfə ölməyəcəksən, qədərində olan ölümü daddın", demiş və çölə çıxaraq bunları söyləmişdir: "Ey insanlar! Muhammədə inananlar bilsin ki, Muhammməd ölmüşdür. Allaha inananlar isə Allahın diri və heç ölməyəcəyini bilirlər". Sonra bu ayəni oxudu: **"Muhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? (Dininizdən dönəcək və ya döyüşdən qaçacaqsınız?)"** (Ali-İmran, 3/144)



Peyğəmbərimizin vəfatından sonra xəlifə olaraq Əbu Bəkiri seçdilər. Hz. Əbu Bəkir təqib edəcəyi siyasətin ümumi əsaslarını ortaya qoyan məşhur xütbəsində müsəlmanların ən yaxşısı olmadığı halda onlara başçı seçildiyini ifadə edərək düzgün hərəkət edərsə, ona kömək etmələrini, yanlış davranarsa, düzəltmələrini, Allah və Rəsuluna itaət etdiyi müddətcə müsəlmanların ona itaət etmələrini istədi.

Hz.Ömər gecə qıldığı namazlarda Quranı yüksək səslə oxuyur, Hz. Əbu Bəkir isə alçaq səslə oxuyurdu. Hz. Əbu Bəkirdən nə üçün elə etdiyini soruşduqlarında "Müraciət etdiyim kəsi dinləyirəm. Ona görə də anlayıram ki, O, mənə uzaq deyildir. Onun eşitməsi baxımından alçaq səslə yüksək səs eynidir", qarşılığını vermişdir.

Hz. Peyğəmbər əshabına və xanımlarına bəzən nafilə ibadət, dua və zikirlər də tövsiyə edirdi. Təsəvvüfdə onun səsli zikri Hz. Əliyə, səssiz zikri də Hz. Əbu Bəkirə öyrətdiyi qəbul edilir. Bu səbəblə təsəvvüfi silsilələr Hz. Peyğəmbərdən sonra bir qoldan Hz. Əli, digər qoldan da Hz. Əbu Bəkir ilə davam etmişdir. Əbu Bəkir ilə davam edən təsəvvüf yoluna Bəkriyyə və ya Siddiqiyyə də deyilmişdir. Hz. Əbu Bəkirdən sonra bu mənəvi zəncir Səlman Farisi ilə davam etmişdir.

Sevinc VƏKİLOVA



Məst üzərinə məsh

Dəri və ya dəri cinsindən olan ayaqları topuqlarla bərabər örtən ayaq geyiminə məst deyilir. Əli isladaraq hər hansı bir yerə çəkmək isə məsh adlanır. Dəstəmaz alarkən bəzi hallarda məstlər bizim köməyimizə çatır. Məstlər Peyğəmbərimiz (s.ə.s.) dövründə də mövcud idi. Peyğəmbərimiz özü də məst geyinmiş və ondan istifadə etmişdir. Məstin müəyyən şərtləri vardır. Əgər məstdə lazımlı bütün şərtlər varsa, ayağına məst geyinən şəxs dəstəmaz alarkən ayaqlarını yumadan sadəcə əlini isladaraq ayağının üzərinə çəkərsə, bu hərəkət dəstəmazdakı ayaqları yumaq olan hökmü təmizliyi əvəz etmiş olar. Məstlər üzərinə məsh etmək səfəri, müqim (səfərdə olmayan), kişi, qadın hər bir müsəlman üçün caizdir. Məst geyinmək və ondan istifadə etmək üçün hər hansı bir zərurətin olmasına ehtiyac yoxdur. Məst üzərinə məsh etməyin caiz olması üçün aşağıdakı şərtlər olmalıdır:

1. Məstlər dəri və ya dəri cinsindən tikilməlidir
2. Məstlər ayağa dəstəmazlı geyinilməlidir
3. Məstlər 6 km. yol gediləcək qədər dözümlü olmalıdır
4. Məstlər içinə su hopdurmamalıdır
5. Məstlərin heç birində üç barmaq (ayağın ən balaca barmağı) sığacaq qədər dəlik və sökük olmamalıdır
6. Məstlər ipsiz ayaqda dura biləcək qədər möhkəm olmalıdır

Müqim olanlar, yəni səfərə çıxmayıb öz yaşayış məntəqəsində olanlar üçün məst üzərinə məshin müddəti bir gün, bir gecə, yəni 24 saatdır. Səfərdə olanlar üçün isə üç gün, üç gecə, yəni 72 saat olaraq hesablanır. Məst üzərinə məshin müddəti məstlər ayağa geyinildiyi andan deyil, geyindikdən sonra ilk dəstəmazın pozulmasından sonra başlayır və bu saata görə hesablanır. Məsələn: Saat 12:00-da ayağına məst geyinən bir şəxsin saat 13:00-da dəstəmazı pozularsa, məst üzərinə məshin müddəti saat 12:00-da deyil, 13:00-da başlayır. Bu şəxs müqimdirsə, növbəti gün saat 13:00-a qədər hər dəstəmaz alanda ayaqlarını yumadan məstlərinin üzərinə məsh çəkər və ayaqları yuyulmuş sayılar. Səfəri olanlar üçün isə bu müddət üç gün davam edər.

Aşağıdakı hallar məst üzərinə məshi pozur:

1. Dəstəmazı və qüslu pozan hər şey məst üzərinə məshi pozar
2. Məstlərin ayaqdan çıxması və ya çıxardılması
3. Məst üzərinə məshin müddətinin bitməsi

Məstlər ayaqdan çıxdığı zaman dəstəmazlı olan şəxsin sadəcə ayaqlarını yuyaraq məsti yenidən geyinməsi kifayətdir. Məstlər ayaqdan çıxan zaman həmin şəxsin dəstəmazı olmazsa, yenidən dəstəmaz almaq lazımdır.

Məst üzərinə məsh necə edilir?

Ayağında məst olan şəxs qaydasına uyğun dəstəmaz alar, ayaqlara gəldikdə ayaqlarını yumadan sağ əlini isladaraq sağ ayağının üst tərəfindən ayaq biləyinə qədər məsh edər, sol əlini isladaraq eyni qayda ilə sol ayağını məsh edər, beləliklə, ayaqlar yuyulmuş hökmündə olar.

Qışda geyinilən ayaq geyimləri məsti əvəz edə bilərmi və onların üzərinə məsh etmək olamı?

Yuxarıda məstin keçərli olması üçün lazım olan şərtlər qeyd edilmişdir. Əgər geyindiyimiz ayaq geyimində həmin şərtlər mövcuddursa, o zaman həmin ayaqqabı da məst hökmündə ola bilər və dəstəmaz alarkən onların üzərinə məsh etmək olar.

İslam dini asanlıq dinidir. Məstlər də dinimizin müsəlmanlar üçün gətirdiyi asanlıqlardan biridir.

Qəlbimizi Quranla dindiranlar



Əbu Musa əl-Əşaridən (radiyallahu-anh) rəvayət edildiyinə görə, Rəsulullah -sallallahu əleyhi və səlləm- ona belə buyurmuşdur:

"Şübhəsiz ki, Davuda verilən gözəl səslərdən bir avaz da sənə verilmişdir" (Buxari, Fəzailul-Quran 31; Müslim).

Müslimin bir rəvayəti də belədir:

Allah Rəsulu (s.ə.s.) Əbu-Musaya belə dedi:

"Dünən gecə sənin oxumağını dinləyəndə məni görməli idin!"

Dünyadaki nemətlərdən biri də insanın gözəl səsli, Quran aşiqi dostlarının olmasıdır. Qəlb elə bir xüsusiyyətə malikdir ki, bəzən yer üzünün genişliyinə baxmayaraq daraldıqca daralar. Bəzən Peyğəmbərimizin də (s.ə.s.) qəlbi daralar və *"Ərihnə ya Bilal - ey Bilal, bizi namazla hüzura qovuşdur"* (Əbu-Davud, Ədəb), *"Ey Abdullah ibn Məsud, Quran oxu, dinləyək"* (Buxari, Fəzailul-Quran: 32-33) - deyə buyurardı.

Peyğəmbərimizin (s.ə.s.) yanında gözəl səsli səhabələr olduğu kimi bizim qismətimizdə də Quranı səsiylə gözəlləşdirən Səltənət müəllimə oldu, əlhəmdulillah. O, Bişkek Qız Quran kursunun müəllimələrindəndir. Əsl Quran aşiqidir. Nə vaxt onu görsəm, əlində Quranı ilə hansısa oxunuş forması üzərində işləyir. Axşamlar isə telefonundan bir qiraət aliminin aşrı-şərifini dinləyə-dinləyə yatıb qalmış olur.

Bir gün Səltənət müəllimədən Qurana olan bu yaxınlığının necə başladığını soruşdum. Quranla dostluğunun hekayəsini özündən dinləyək: "Mən Qurana uşaqlığımdan bəri aşiqəm. Anam və atam maqnitafona Kəbə imamı Sudeysinin səsi yazılmış kaset qoyar, əllərinə Kəbənin şəklini alar, uzun müddət ona qulaq asar və bir tərəfdən ikisinin də gözlərindən yaşlar axardı. O qədər gözəl görünürdülər ki, bunun uşaqlığımın ən gözəl kadrları olduğunu deyə bilərəm. Onlara baxmaqdan doymazdım. Onların hallarından, Sudeysinin səsindən o qədər təsirlənərdim ki, tək otağa keçər, kiçik yaşda əzbərlədiyim Fələq və Nas surəsini yüksək səslə Sudeysi kimi oxuyardım. Bu, hər gün təkrarlanardı. İki surəni təqlid edərək oxumaq mənə yoldaşlarımla oynadığım oyundan daha çox zövq verərdi. Biz altı uşağıq. Atam hamımızı Quran tərbiyəsi ilə böyüdüb. Allaha həmd

olsun ki, hamımız elm almışıq”.

Səltənət müəllimənin ailəsini tanıyıram. Atası, Səltənət müəllimə Türkiyədə Hüdayi Qız Quran kursunda oxuyarkən vəfat etmişdi. Rəbbim yerini üstün etsin. Böyük bacısı Hüdayi kursunda elm alıb, kiçik bacısı isə kursumuzun ikinci hafizidir. Qardaşı Bişkekdə olan başqa bir kursda bu il hafizliyini başa vurdu. Atası vəfat etdikdən sonra anası də Qırğızıstanın Batkən şəhərində bir kursda Qurani-Kərim müəlliməsidir. Yəni ailəlikcə Quranı özlərinə dost seçiblər. Babası SSRİ-nin türk dövlətlərinə hakim olduğu, alimlərin, müəllimlərin sürgün edildiyi vaxtlarda kənddəki kiçik məsciddə azan oxuyub, namaz qıldırarmış. Əsgərlər kəndə basqın edəndə ailəsini qoyub Özbəkistana qaçmış, orada məsciddə elm öyrədərək ömrünü tamamlamışdır.

Türk dövlətlərində illərcə Quran tədrisi qadağan olunduğu üçün xalq arasında Quran oxuyanların sayı çox azalmışdı. Molla adı verilən şəxslər əzbərdən bildikləri surələri cənazələrdə oxuyaraq Quranı mü-hafizə etməyə çalışırdılar. Təbii ki, əzbər olduğu üçün oxunan surələrdə səhvlər də var idi. Bir cənazə olduqda bu mollalar dəvət edilərək Quran oxudulardı. Səltənət müəllimənin atası vəfat etdikdə evdəkilərin hamısı Quran oxuya bildiyi üçün molla çağırmayıblar. 12 yaşındakı qardaşı Mülk surəsini ağlayaraq oxuduqda insanlar çox təsirlənibər. Daha sonra kəndlilər “öləndə arxamızdan Quran oxuyanımız olsun” -de-yə, uşaqlarını Quran öyrənmək üçün məscidə göndərmişlər. Xalq bu ailəyə heyran qalıb - “Bu ailənin dirisi deyil, ölüsü belə islamı təbliğ edir”,- demişdir.

Biz də müəllimələrlə onlara qonaq gedəndə “Səltənət müəllimə, bizim qəlbimizə hüzur ver”, - deyib, gözəl avazla oxuduğu Quranla rahatlayırıq. Qurani-Kərimi o qədər könüldən hiss edərək oxuyur ki, bu dinləyəni də təsirləndirir.

Bəzən Qurana aşiq, kursumuzun yeni hafızlərindən olan Baxtıgül adındaki tələbəmizin dərsini dinləməyə gedirəm. Dərsi dinləyərkən ona heyran qalıram. Quranın hər hansı bir səhifəsini açıb bir söz soru-şuram. O da Quranın hansı səhifəsi, hansı surəsi olduğunu dərhal cavab verir və ayəni oxumağa başlayır. Sonra ayənin mənasını soruşduqda dərhal mənasını söyləyir. Digər dərslərdə də bir ayənin tərcüməsini desəm ərəbcəsini oxumağa başlayır. Digər hafizlərin Quranı təkcə ərəbcə əzbərlədiyi halda, Baxtıgül həm ərəbcəsini əzbərlədi, həm də əzbərlədiyi səhifəni qırğızca öyrənərək Quranda verilən mesajları dərhal anlamağa başladı. Bir gün ona: - “Tərcüməyə olan bu sevginin səbəbi nədir?” - deyə soruşdum. “Müəllimə, uşaqlığımızdan bəri atam bizi ətrafına yığıb dairəvi otuzdurar, Quranı oxuduqdan sonra başa düşməyimiz üçün mütləq qırğız dilində də oxuyardı. Bizdəki Quran sevgisi və mənasını anlaya bilmə səyi buradan gəlir”, -dedi. Səltənət müəllimə kimi səsi və oxuyuşu gözəl tələbəmizin Quran tilavəti ilə proqramlara gələn qonaqlarımız duyğulanır və dincəlirlər.


Baxtıgülün bacısı da gələn il kursumuzu müvəffəqiyyətlə bitirib Türkiyəyə Hüdayi kursuna elm almaq üçün gedəcək.

Quran aşiqi bir müəllimə və bir şagirdin həyat hekayələrinin ortaq nöqtəsi ailələridir. Balacalıqda eşqlə verilən təhsilin daşın üzərinə yazılan yazı kimi olduğunu canlı nümunələrlə bir daha gördük.

Sözlərdən fərqli olaraq uşağa davranışlarımızla öyrətdiyimiz təhsil onun üzərində öz təsirini göstərir. İki nümunəmizdə də olan gənc qızlarımızın ailələri nə professor, nə psixoloq, nə də müəllimdir. İkisinin də atası kənddə doğulub böyüyən, Quran təhsillərini hücrə adı verilən məscidin yanlarındakı kiçik otaqlarda bir müəllimlə almış insanlardır. Uşaqlarını böyüdərkən cild-cild təhsil, psixologiya kitabları oxumayıblar. Uşağımıza necə bir gələcək verərik deyə panika içərisində bütün enerjilərini övladlarına sərf etməyiblər. Sadəcə onlarla maraqlanaraq və yaşayaraq tərbiyə vermişlər.

Rəbbim həyatımızla, sözlərimizlə könüllərə hüzur verənlərdən ola bilməyi və Quran oxumaları ilə, fikir və zikirləri ilə daralan ruhları genişləndirən nəsillər qoymağı, tələbələr yetişdirə bilməyi nəsib etsin. Amin...

Samirə MAHMUDOVA



Müşk çantası

Rəsulullah (s.ə.s.) səhabələri ilə bəzən söhbət edərkən onlara keçmiş ümmətlərin əhvalatlarından, başlarına gələn müsibət, bəla və imtahanlardan söz açarmış. O, Allah-Təalanın bildirmək istədiyi əmr və qadağaları bu hikmətli hekayələrlə nümunə göstərər, ən gözəl təbliğ üsullarından istifadə etməklə ilahi mesajı bu şəkildə çatdırarmış. Bu ibrətamiz hekayələrdən biri də Yəhya Peyğəmbərin ümməti ilə etdiyi bir söhbətində yer alan ilahi mesajlar olmuşdur.

Haris əl-Əşari rəvayət edir ki, Rəsulullah (s.ə.s.) bir gün bizə belə buyurdu:

Allah-Təala Zəkəriyya Peyğəmbərin oğlu Yəhya Peyğəmbərə həm özünün yerinə yetirməsi, həm də camaatına təbliğ etməsi üçün beş əmr verdi. Yəhya Peyğəmbər bu əmirləri xalqa təbliğ etməkdə gecikəndə İsa Peyğəmbər onun yanına gedərək dedi: "Ey Yəhya, Allah-Təala həm sənin, həm də xalqının yerinə yetirməli olduğu beş əmri sənə vermişdir. Bu əmrləri ya sən bir an öncə təbliğ elə, ya da mən təbliğ edəcəyəm".

Yəhya Peyğəmbər belə cavab verdi:

"- Qardaşım, əgər Allah-Təalanın verdiyi əmrləri xalqa sən təbliğ etsən, Rəbbimin mənə əzab etməsindən və ya məni yerin dibinə keçirməsindən qorxuram".

Sonra Yəhya Peyğəmbər xalqı Beytül-Məqdisə topladı. İbadətgah ağzına qədər doldu, hətta camaat məscid kənarında yerlərə də oturdu. Yəhya Peyğəmbər Al-

laha həmd və səna etdikdən sonra bunları söylədi:

- Allah-Təala həm mənə, həm də sizə yerinə yetirməli olduğunuz beş əmri verdi. Mən də onları sizə əmr edirəm:

- İlk olaraq Allaha ibadət edəcək, Ondan başqasını Rəbb olaraq qəbul etməyəcəksiniz. Baxın görün, Allahdan başqasını Rəbb olaraq qəbul edən nəyə bənzəyir:

Bir nəfər öz malından bir qədər qızıl və gümüşlə bir kölə alır və ona deyir: Mənə bax, oğlum! Bu mənim evim, bu da işim, çalış qazancını gətir mənə ver! Amma o kölə nə edir, o qazandığı pulları sahibinə deyil, aparıb başqasına verir. Mənə deyin görək, hansınız köləsinin belə hərəkət etməsini istəyər?

- Sizi Allah yaratdı və ruzinizi O verdi. Elə isə qətiyyən Allahdan başqasını tanrı yerinə qoymayın!

- Allah-Təala sizə namaz qılmağı əmr etdi. Namaz qılarkən qətiyyən sağa-sola baxmayın. Bir bəndə namazda sağa-sola baxmağa davam etdikdə Allah- Təala namaz boyunca onun üzünü həmişə o tərəfə çevirər.

- Sizə oruc tutmağı əmr edirəm. Bilirsiniz oruc nəyə bənzəyir?

Camaat arasında bir nəfər olur. Onun da içindən müşk qoxusu gələn bir çantası olur. Bu çantadan gələn müşk qoxusu hər kəsi məst edir və hamı onu qoxlamaq istəyir. Oruc da belə bir şeydir. Oruc tutanın ağız qoxusu Allah qatında müşk qoxusundan daha dəyərlidir.

- Sizə sədəqə verməyi də əmr edirəm. Baxın görün sədəqə nəyə bənzəyir:

Düşmən bir nəfəri tutub əsir götürmüş, əllərini qandallayıb boynunu vurmaq üçün meydana gətirmişdir. Adam onu əsir götürənlərə: "Məni fidyə qarşılığında azad edin, çalışıb qazancımı sizə gətirim"- demiş və beləcə canını ölümdən qurtarmışdır.

- Sizə bir də Allahı çox zikr etməyi əmr edirəm. Bilirsiniz zikr nəyə bənzəyir:

Bir nəfər düşməndən qaçar, düşmən isə onu sürətlə qovalayar. Elə bu anda adamın qarşısına möhkəm bir qala çıxar, o da bu qalaya sığınaraq düşməndən canını qurtarar. Bir bəndə də şeytandan canını yalnız zikr ilə qurtara bilər.

Allahın Rəsulu (s.ə.s.) bu hekayəni danışıb qurtarandan sonra belə buyurdu:

- Mən də sizə Allahın mənə əmr etdiyi beş şeyi yerinə yetirməyinizi əmr edirəm:

- Dövlət başçılarınızın əmrlərinə itaət edin.

- Allah yolunda fədakarlıq (cihad) edin.

- Hicrət edin.

- İslam camaatından ayrılmayın. Çünki İslam camaatından bir qarış da olsa ayrılan insan yenidən ora qayıdana qədər boynundakı İslamın ipini açıb atmış olar.

- Cahiliyyə adət-ənənəsi və davası aparan da cəhənnəmlik olar. Bu söhbətdə iştirak edən səhabələrdən biri belə dedi:

Ey Allahın Rəsulu! O adam namaz qılıb oruc tutsa, yenə da cəhənnəmlik olar? Rəsuli-Əkrəm belə cavab verdi:

-Bəli, namaz qılıb oruc tutsa və özünü Müsəlman sansa belə yenə cəhənnəmlik olar.

Bu ibrətamiz hadisə bizə Allahın qadağa və əmrlərini insanlara aşılayarkən misal, nümunə və bənzətmələrlə izah etməyin necə də gözəl təsir etdiyinin əhəmiyyətini bildirir. Allah-Təala ibrətli hekayələrdən nəticə çıxarmağı və həyatımıza tətbiq etməyi bizlərə qismət etsin. Amin!

Nəslihan GÜNƏŞ
gunesneslihan@gmail.com

Nur saçan evlər

Quran əsaslı bir inanca sahib insanların həyata baxışları və şərhləri də, əlbəttə, bu istiqamətdə olacaq. Bu baxış hər mövzuda insanın həyat yolunu müəyyən edir. İnsan həyatın hər mərhələsində vəziyyətini buna görə müəyyən edir.

İctimai dəyərlərimizdə ciddi itkilər mövcuddur. Bilmirik, bu ya da digər səbəblərdəndir ki, ailələrdə dağılmalar diqqətimizi çəkir.

Ailə hara gedir, deyə baxan bir göz bu böyük dağılmanı çox rahat görə bilər. Əvvəllər böyüklərimiz "Dörd divar arasında bir işıq yanır, amma kim bilir necə yanır?!" deyərdilər. Bu, bəlkə maddi çətinlikləri, bəlkə də ailədə ola biləcək bəzi narahatlıqları dilə gətirmək üçün idi. İndi daha yaxşı anlayırıq o işıqların işıqlandırdığı dörd divar arasındakı evlərdə nələr ola biləcəyini və çaşqınlıqla izləyirik baş verənləri. Çünki artıq hər şey dörd divar arasında qalmır.

Müasir həyatın məhsulu TV, kompüter, musiqi, internet, iş həyatı, ailə həyatına keçid, qonşuluq və qohumluq əlaqələrindəki qopmalar, insanı yalnızlığa və bir o qədər də zəifliyə apardı. Daim artan ehtiyaclar insanları daha çox işləməyə və daha çox qazanmağa istiqamətləndirdi. Təhsil, iş, ailə, ev və uşaq məsuliyyəti ilə yüklənilən qadın da çətin bir iş içərisində yerini aldı. Təhsil sisteminin içindəki uşağın həyatını məktəb, hazırlıq kursları və bir-birini təqib edən imtahanlar zənciri əhatə etdi. Bu şəkildə məşğul insanlardan ibarət olan ailə üzvlərinin birlikdə keçirdikləri zamanlar getdikcə azaldı və bu zamanlar da, ümumiyyətlə, yorğun anlara təsadüf etdi.

Ailənin ən çox bir araya gələ biləcəyi zamanlar axşam vaxtlarıdır. Bu vaxtlar da, ümumiyyətlə, TV ilə yoldaşlıqla keçir. Nəhayət, çox vaxt eyni evi paylaşdığımız halda, fərqli dünyaları yaşayırıq. Bədənlər yan-yana, ancaq ruhlar fərqli yerlərdə.

Beləcə güc mərkəzimiz evimiz olmalı ikən, bəlkə ən sabit yerimiz evlərimiz oldu. Öz həyatının müsbət və mənfi gərginliyini



insanlar bir şəkildə çöldə yaşayarkən evinə ancaq yorğunluğunu gətirdi. Enerjisini sərf edən, ya da azaldan köslər, ana-atalarına, həyat yoldaşlarına və uşaqlarına ayıracaq vaxt tapmaqda çətinlik çəkir, eyni zamanda ailə fərdləri bir-birlərinə qarşı dözümsüz olmağa başladılar. Bu da ailədə gərginliklərə və uzaqlaşmağa gətirib çıxardı. Əslində, istər yoldaşlar, istər uşaqlar arasındakı ünsiyyət problemləri birdən ortaya çıxmadı. Müəyyən bir prosesin nəticəsində inkişaf etdi.

Tariximizin böyük şəxsiyyətləri ilk təhsillərini ailədə almış və ailə ən böyük elm mərkəzi olmuşdur. Bax, biz də elə evlər və ailələr üçün darıxırıq. Kitabımız bizə bu mövzuda bir nümunə verir. Allah-Təala Quranda öz nurunu izah etdiyi bir ayənin arxasından bəzi evlərdəki nurdan bəhs edir:

"(Həmin taxça və çıraq) Allahın tikilib ucaldılmasına və Öz adının zikr edilməsinə izin verdiyi o evlərdədir (o məscidlərdədir) ki, orada səhər-axşam Onu təqdis edib şəninə təriflər deyərlər" (Nur, 24/36).

Görəsən, bu gün neçə nəfərin evi ətrafa nur saçan şamlar kimidir? Ailə fərdləri bu nurun ətrafında toplanıb, bu nurla aydınlana bilirmi? Evlərimizdə, gündəmimizdə nələr vardır. Nur, ancaq ailə ilə birlikdə Allahı səhər axşam təsbih edib ucaltmaq kimi müqəddəs bir amalın var olduğu bir evdən saçılar. O evdən yayılan nur da, dinclik, sükunət, güvən, fədakarlıq, sevgi olaraq təzahür edəcək.

Bu anda ilk növbədə evlərimizə qayıtmalı, ailəmizə üstünlük verməliyik. Valideynimiz, yoldaşımız və uşaqlarımızla birlikdə bu şamın ətrafında ola bilməyi öyrənməliyik. Evlərimizi imanın və gözəl əxlaqın beşiyi halına gətirməli, bu mövzuda ciddi işlər etməliyik. Quran və sünnə çərçivəsində ailə dərsləri təşkil edilməli və ortaq məxrəcimiz bu olmalıdır. Bəzən başqa insanları haqqa dəvət edəcəyik deyə çabalayan köslərdə də, təəssüflər olsun ki, ailə laqeydliyi ola bilir. Hər nə səbəbdən olursa olsun, ailəmizə biganəliyimizin fərqinə varmalı, bir an əvvəl evimizə qayıtmalıyıq.

Rəbbimiz Kitabında öz evi, yəni Beytullahı üçün belə buyurur:

Evlərimizin xüsusiyyətləri bunlar olmalıdır. Bizim evlərimiz də savab qazanma yeri olmalıdır. Güvənin hakim olması vacibdir. Bizim evimizdə toplananlar təvaf edən, yəni Allahı həyatlarının mərkəzinə qoyan, ibadət edən, rüku, səcdəsinə diqqət edənlərdən olmalıdır. Bu ruhu daşıyanların toplanacağı məkan evlərimiz olmalıdır. Yoldaşımız, uşaqlarımız bu xüsusiyyətləri daşımalıdır. Bunun üçün də evlərimizi hər cür maddi və mənəvi pisliklərdən təmizləməliyik. Beləcə bütün evlər Beytullah xüsusiyyətini daşıyan dinclik mərkəzləri olacaq. Heç bir üsyanın olmadığı, ləbbeyk yəni "əmr et, yerinə yetirim, Allahım" -deyərək boyun əyən fərdlərin toplandığı məkan evlərimiz olmalıdır.

Bu evlərin sayı çoxalacaq və yaşadığımız cəmiyyət də bu xüsusiyyətləri daşıyacaq. Quranda iman gətirənlərin bir-birlərinə yaxın olması tövsiyə edilərkən bu işin ictimai ölçülərini dəqiq bir şəkildə anlaya bilirik.

"Musaya və qardaşına: 'Camaatınız üçün Misirdə evlər tikdirib onları qiblə (namazgah) edin, namaz qılın və möminləri (zəfərlə, Cənnətlə) müjdələyin!' – deyə vəhy etdik" (Yunus, 10/87).

İşıqlanan evlərimizi yaxın tutmaqda məqsəd iman əhli insanların bir-birlərinə ev olaraq da yaxın olmalarıdır.

Bu nəticə etibarilə çətin görünsə də, qeyri-mümkün deyil. Bax, o zaman buradakı sükunət mərkəzi evlərdən də çox olacaq. Bax, o zaman inanan qadınlara nümunə göstərilən Fironun xanımı Hz. Asiyə anamızın Rəbbindən istədiyi evi bizim də istəmə haqqımız olacaq.

"Allah iman gətirənlərə isə Fironun zövcəsini (Asiyə bint Məzahimi) misal çəkdi. O zaman o: 'Ey Rəbbim! Mənim üçün Öz dərgahında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et!' – demişdi" (Tahrim 66/11).

Ümmətin qurtuluşu evlərimizin işıqlanması ilə mümkündür.

Mətanət KƏRİMOVA

SÜFRƏNİZDƏ QONAĞA YER AÇIN!



Ulu babalarımızın və nənələrimizin əsrlər, qərinələr boyu öz gündəlik həyat və yaşam tərzində zaman-zaman, qətrə-qətrə yığıb topladıqları təcrübə və vərdişlər maddi-mədəniyyətimizin yaranması və formalaş-masında mühüm rol oynayıb. Danılmaz bir həqiqətdir ki, Azərbaycan xalqının çoxşaxəli və zəngin mədəniyyəti içərisində süfrə mədəniyyətinin öz yeri, öz gözəllikləri var. Süfrə mədəniyyəti tarixən xalqımızın həyat tərzini, məişətini, davranışını, zövqünü, estetikasını, dünyagörüşünü formalaşdıran əsas amil olmuşdur.

Qonaq süfrəsi

Xalqımızın qonaqpərvərliyi onun tarixi qədər qədimdir. Bu kəlam bunu çox gözəl ifadə edir - "Sən bizim ellərin ruhuna bir bax, bizdən inciməmiş bir əziz qonaq".

Bu sözlərdə böyük bir həqiqət var. Xalqımız minillər boyu ölkəmizə gələn, torpağımıza ayaq basan qonağı ən əziz, ən doğma adamı kimi qəbul edib, evindəki ən ləziz yeməyi, ən əziz əşyanı məhz qonağın qarşısına qoyub. Təsadüfi deyil ki, xalqımız, "qonaq Allah qonağıdır" — deyib həmişə.

Xalqımızın qonaqpərvərliyi haqqında ən qədim tarixi mənbələrdə, qaynaqlarda, folklor nümunələrində istənilən qədər maraqlı məlumatlara rast gəlmək olar. Belə tarixi mənbələrdən biri məşhur avropalı səyyah Marko Polonun səyahətnaməsidir. Hələ XIII əsrdə ölkəmizə gəlmiş bu səyyah özünün yol qeydlərində Azərbaycanın təbiəti, tarixi, şəhərləri və insanları haqqında məlumat verən səyyah həm də milli süfrə mədəniyyətimizə heyran olduğunu gizlətmir. Təbriz, Şamaxı, Gəncə, Bakı kimi şəhərləri gəzən Marko Polo hər eldə, hər obada rastlaşdığı süfrə mədəniyyətinə də biga-nə qala bilməmiş, yediyi, daddığı təamları heyranlıqla təsvir etmişdir. Bu venesiyalı səyyah Təbriz və Şamaxı şəhərlərində qarşılandığı məclislərdə şahidi olduğu "süfrələrin vəsfəgəlməz gözəlliyi qarşısında insanın bihuş olduğunu" bildirir.

Digər bir italyan səyyahı Katerino Zenonun XV əsr Azərbaycanda süfrə mədəniyyəti haqqında verdiyi məlumatlar da olduqca maraqlıdır. Ağqoyunlu hökmdarı Uzun Həsənin qonağı olmuş Zeno yazır: — "Mənə sarayda yer verildi. Mən hər gün şah süfrəsində nahar edə bilərdim". Gördüklərini möcüzə adlandıran Zeno hər dəfə süfrə



arxasında oturarkən yemək əvəzinə burdakı gözəlliyə baxıb “doyduğunu” bildirir. Göründüyü kimi hələ 500 il əvvəl milli süfrə mədəniyyətimizə heyran olan avropalının dedikləri xalqımızın qonaqpərvərliyi ilə yanaşı, zəngin bir mədəniyyət sahibi olduğunu sübut edir.

Milli Azərbaycan süfrəsi

Göründüyü kimi, milli mətbəximiz, xörəklərimiz, süfrə mədəniyyətimiz əcnəbiləri hələ çox-çox illər bundan əvvəl heyran edib, öz sehrinə salıb. Çünki xalqımızın milli süfrə mədəniyyəti əsrlər boyu inkişaf edərək bu günümüzədək gəlib çıxmış misilsiz xəzinədir. Bu xəzinənin açarını gələcək nəsillərə çatdırmaq bizim borcumuzdur.

İslamda süfrə ədəbi

Peyğəmbərimiz (s.ə.s.), bu mövzuda da bizim üçün gözəl bir nümunədir. Onun süfrəsi müxtəlif yeməklərdən hazırlanan zəngin bir süfrə deyildi. Sadə bir həyat yaşadığı üçün süfrəsi də sadə idi.

Qonaqlara ikram etmək İslam dininin əmrlərindəndir. Qonaqları qəbul etmək, onları gülərüzlə, şirin sözlə qarşılamaq, ikram etmək lazımdır. Qonağa bir şey əmr etmək ayıbdır. Qonaq gedəcəyi zaman qapıya qədər onu ötürmək lazımdır.

Süfrədə israf

İsrafın ən bariz nümunəsi qonaqlıqlarımızdır. Həmişə qonaqlarımızın narahat olmasının qəmini çəkirik. Evə çağırdığımız bir neçə qonağa görə o qədər israf edirik ki, elə bil ən böyük bir toy mərasimi süfrəsi təşkil edirik.

Evə qonaq gəlməmişdən qabaq evin xanımları mətbəxdən çıxmazlar və evi müxtəlif cür yeməklərin iyi bürüyər. O qədər yorğun olarlar ki, qonaqları istədikləri kimi qarşılaya bilməzlər. Süfrədə müxtəlif cür salatlardan tutmuş isti yeməklərə qədər hər şey olar.

Bəs cəmi üç nəfər qonaq üçün bu qədər israf etmək olarmı? Qonaqlar gedəndən sonra süfrədə heç toxunulmamış nə qədər yemək qalır.

Bəs bu süfrəni sadə şəkildə təşkil edə bilərdikmi? Belə görünür ki, bəli. Bir salat, bir çeşid isti yemək və bir qədər meyvə – bu qonaqlıq üçün kifayətdir.

Qonağa ikramı bir sədəqə olaraq görüb büdcəmizə uyğun əlimizdən gələni etməliyik. Yeməkləri seçərkən hər kəsin yeyə biləcəyi yeməkləri hazırlamaq lazımdır. Əvvəlcə evdə olan ərzaqlardan başlayaraq yemək hazırlasaq çətinliyə düşmərik.

Evin bərəkəti qonağın tez-tez gəlməsindədir. Qonaq ilahi bir nemət və qonağa ikram etmək böyük bir müvəffəqiyyətdir ki, hər kəsə nəsib olmaz. Atalar sözündə də gözəl buyurulur: “Qonaq ruzisini özü ilə gətirər”.

Allah hər birimizin evini qonaqlı, süfrəmizi ruzili, bərəkətli etsin. Amin!

Aygün MƏMMƏDZADƏ

Yerkökü keki



Ərzaqlar:
400 qr. peçenye
9 ədəd orta ölçüdə yerkökü
1,5 st. şəkər tozu
130 qr. əridilmiş kərə yağı
Yarım st. xırdalanmış qoz ləpəsi
1ç.q. darçın
Üzəri üçün:
1 armudu st. xırdalanmış qoz ləpəsi
Hazırlanması:
Yerkökünü yuyub qurutduqdan sonra rəndələyib qazana tökürük. Üzərinə şəkər tozunu əlavə edirik. Yerkökü yumuşalana qədər bişirib qazı söndürürük. Peçenyeləri kiçik hissələrə parçalayıb üzərinə ərinmiş kərə yağı, qoz ləpəsini və darçını əlavə edirik. Bu qarışığı yerkökünə əlavə edirik. (Peçenyeləri əzməməyə diqqət edin) Dördkünc qaba streç səririk. Qarışığı bu qabın içinə basaraq yerləşdiririk. Boşluq qalmamasına diqqət edirik. Yarım saat soyuducuda saxlayırıq. Sonra boşqaba çıxardırıq və üzərini xırdalanmış qoz ləpəsi ilə bəzəyirik. Nuş olsun!

Kremli bulka

Ərzaqlar:
1 st. süt
Yarım st. su
1armudu st. şəkər tozu
1armudu st. əridilmiş kərə yağı
1 x.q. quru maya
1 paket vanil
2 ədəd yumurta
Yetərli qədər un

Kremi üçün:
2.5 st. süd
2 x.q. un
1 x.q. nişasta
1 paket vanil
1 st.dan bir az əskik şəkər tozu
Yarım paket krem şanti



Hazırlanması:
İlıq süd, su, quru maya qarışdırılır. Sonra şəkər tozu, yağ, yumurta, un əlavə edilərək yumşaq xəmir yoğururuq. Üzərini örtüb 1 saat gözləyirik. Xəmiri 1.5 sm qalınlığda yayıb stəkan ilə kəsirik. Yağlı kağız sərilmiş soba listinə düzürük. Əvvəlcədən 200 dərəcə qızdırılmış sobada üzəri bir az qızarana qədər bişirib soyumağa qoyuruq. Kremi üçün isə krem şantidən başqa bütün ərzaqları bir qazanda çalıb bişiririk. Soyuduqdan sonra krem şantini də əlavə edib mikserlə çalırıq. Soyuyan bulkaların ortasından kəsərək krem çəkirik. Üzərinə istəyə görə ərinmiş şokolad və ya şəkər kirşanı əlavə edirik. Nuş olsun!
Qeyd: xəmirləri sobada bişirmək əvəzinə, yağda da qızarda bilərsiniz. Bu zaman bulkaları kəsmirik, kremi şprislə içinə doldururuq.

Kartof kotleti



Ərzaqlar:
4 ədəd böyük bişmiş kartof
1 x.q. tomat pastası
1,5 st. suxari
3 diş sarımsaq
İstəyə görə pul bibər
Duz, istiot
Cəfəri
Qızartmaq üçün:
1 yumurta
Duru yağ
Hazırlanması:
Bişmiş kartofu əzirik, içərisinə doğranmış cəfəri, suxari, tomat pastası, duz və ədviyyatları əlavə edib yaxşı yoğururuq. Sonra kotlet halına salırıq. Yumurtaya duz əlavə edib qarışdırırıq. Kotletləri yumurtaya batırıb qızğın yağda qızardırıq. Nuş olsun!

Lahmacun



Ərzaqlar:
Üzəri üçün:
250 q çəkilmiş qoyun əti
1 ədəd xırda doğranmış
kiçik soğan
3 ədəd pomidor (qabığı soyulmuş, sıxılaraq dənəsi çıxarılmış və xırda doğranmış)
1 dəstə xırda doğranmış cəfəri
3 diş xırda doğranmış sarımsaq
1 ədəd acı qırmızı bibər (istəyə görə)
2 ədəd şirin qırmızı bibər
Duz
4 x.q. soyuq su

Xəmiri Üçün:
1 x.q. quru maya
1 ç.q. şəkər tozu
3-4 st. ılıq su
4 st. un
2 ç.q. duz

Hazırlanması:
Bir qabda maya, şəkər, duz və suyu həll olana qədər qarışdırırıq. Sonra unu əlavə edib sərt olmayan bir xəmir yoğururuq. Xəmiri 1 saat saxlayırıq. Üzəri üçün olan ərzaqları bir qaba qoyub yaxşı qarışanadək yoğururuq.
Xəmiri kündələrə ayırıb yayırıq. (İstəyən böyük və ya kiçik edə bilər) Sonra yaydığımız xəmiri soba listinə qoyub üzərinə içlikdən yayırıq. 200 dərəcə qızdırılmış sobada ət bişənə kimi, təxminən 7 dəqiqə bişiririk. Bişən lahmacunu sobadan çıxardan kimi, kənarlarındakı xəmirə yağ sürtürük. (Bu, kənarlarını yumuşaldacaq) Lahmacunu isti-isti, zövqə görə cəfəri və limonla süfrəyə veririk. Nuş olsun!

HƏKİM MƏSLƏHƏTİ
Vüqarə MƏMMƏDOVA

Albinizm xəstəliyi



Qarşınıza saçları və üz cizgiləri ağbəniz olan insanlar çıxsa təəccüblənməyin. Onları el arasında "Fosfor adam" kimi tanıyırlar. Bu şəxslərin xəstəlikləri elmdə albinizm adlanır. Belə insanların ağ rəngi ətrafdakıların diqqətini tez cəlb edir. Bu baxımdan albinizm xəstəliyinə tutulanların çoxu bunu kompleks sayır. Belə ki, bəzi insanların reaksiyaları, onlara uzun müddət baxmaları, bu xəstəlikdən əziyyət çəkənləri sıxır. Alimlərin araşdırmasına görə, Avropada hər 20 min nəfərdən biri, dünyada isə hər 17 min insandan biri ağ dərili, ağ saçlı, qırmızı gözlü albinoslardır. Ən çox albinos isə Nigeriyada yaşayır. Nigeriyada hər 3 min adamdan biri albinosdur.

Albinizm dəridə piqmentin anadangəlmə yoxluğudur. Albinizm genetik xəstəlikdir və müalicəsi yoxdur. Belə insanlarda piqmentlər inkişaf etmədiyi üçün onların rəngi ağ olur. Albinizm - insan dərisində, saçlarda və gözlərdə həmin hissələrin normal rəngini verən boya maddəsinin irsi olaraq yoxluğudur. Albinizm 3 cür olur. Bütün bədəni əhatə edən albinizm, göz albinizmi, dəri albinizmi. Tam albinizm zamanı dəri, tüklər ağ, gözlər isə qırmızı rəngdə olur. Dəri albinizmində gözlər normal olsa, dəri və tük piqmentsiz olur. Göz albinizmində isə gözlər piqmentsiz, dəri və tük normal rəngdə olur. Albinosların gözləri çox pis görür, dəriləri isə günəşə qarşı çox həssas olur. Albinoslar özlərini günəş şüalarından çox diqqətlə qorumalıdırlar, çünki onlarda dəri xərçənginə tutulmaq riski çox yüksəkdir. Onlar xüsusi qoruyucu eynək taxmalı və bütün bədəni örtən paltar geyinməlidirlər. Albinosların sümüklərinin tərkibində fosforun miqdarının həddən çox olması onları adi insanlardan fərqləndirən başlıca cəhətlərdən biridir. Sağlamlıq, intelekt və yaşam müddətinə görə digər insanlardan fərqlənmirlər.

İnsanların bu patalogiya ilə doğulmasının səbəbləri bəlli deyil. Gənclər ailə həyatı

quranda mütləq yoxlanışdan keçməlidirlər. Laboratoriya şəraitində piqment çatışmazlığından analiz verib özlərini müayinə etdirə bilərlər. İstər qohum olsun, istər yad, evlənən gənclərin genetikasında bu xəstəlik varsa, öz uşaqlarında olmasa da, gələcək nəsillərdə mütləq üzə çıxacaq. Əgər hər iki gənc albinosdursa, onların övladının da albinos olması qaçılmazdır".

Biz bu cür insanlara xəstə kimi yanaşırıq. Düzdür, bu, xəstəlikdir, amma təhlükəsizdir. Çünki o toxunmaqla, ya da hər hansı bir təmasla keçən, yayılan bir şey deyil. Albinizm dəriyə, saça, gözə rəng verən boya maddəsinin yoxluğundan qaynaqlanan genetik bir problemdir. Belə insanlar xüsusən uşaq yaşlarında çox narahat olurlar. Onlar yaşıdlarından seçildikləri üçün bəzən həmyaşıdları tərəfindən qəbul edilmir, yaxud "sən niyə ağsan", "sənə əl vursam mənə də keçər" kimi suallarla qarşılaşırlar. Təbii ki, bu da onlarda psixoloji gərginlik yaradır. Övladlarımıza başa salmalıyıq ki, o, xəstə deyil və dostları kimi hər şey edə bilər. İstənilən halda uşaq üçün bu halı qəbul etmək heç də asan olmur.

Azərbaycanda albinizm xəstələri...

Müşahidələr onu göstərir ki, ölkəmizdə bu cür xəstələr heç də az deyil.

Albinizm xəstəsinin görmə qabiliyyəti azalıbsa, onlara əlillik verilir və sintomatik müalicə aparılır.

Albinizm xəstəliyindən əziyyət çəkənlərin Səhiyyə Nazirliyində statistikası yoxdur. Onlar xüsusi qeydiyyatda olmurlar. Bu xəstəliyin müalicəsi olmadığı üçün onların qeydiyyatı aparılmır.

Albinoslar tarixən bütün dünyada ayrı-seçkiliyə məruz qalıblar. Bəzi Afrika ölkələrində cadugərlər albinosları öldürüb onların bədən üzvlərini kəsərək uğurgətirici əşya kimi satırlar. Hər il onlarla albinos öldürülür. Xüsusilə Tanzaniyada cadugərlərin, albinosların saç, qol, ayaq və qan kimi bədənlərindən alınan parçaları, insanları zəngin edəcəyi iddia edilən bir iksir istehsalında istifadə etdikləri deyilir.

Bu baxımdan bir çox ölkələrdə albinoslar hüquqlarını müdafiə etmək üçün öz təşkilatlarını yaradıblar. Belə xəstəlik daşıyıcıları ilə bir çox ölkədə hələ sağ ikən müqavilə bağlanılır, onlara pul ödənilir. Onlar dünyasını dəyişdikdən sonra isə sümüklərindən texniki məsələlər üçün istifadə edirlər.

Dünyada ən böyük albinos ailəsi Hindistanda yaşayır. Onlar sayı 10 nəfərdi. Bundan əvvəlki rekord ABŞ və Kanadada yaşayan 6 üzvlü iki ailəyə aid olub.

Qeyd edək ki, bəzi ölkələrdə geniş yayılmış batil inanclar səbəbindən albinizm sindromu ilə doğulan insanlar alver alətinə çevrilirlər. Hətta onların bədən üzvləri böyük məbləğdə pullara satılır. Yaxın qohumlar belə pula görə bu cinayətdən kənarda qala bilmirlər.

Bu xəstəliyə həmçinin heyvanlarda da rast gəlinir. Albinizm sindromu ilə doğulan heyvanların həyatda qalma şansı daha azdır. Çünki hər yerdə gözə çarpırlar. Bir tək qarla əhatə olunmuş yerlərdən başqa. O da ki, qar həmişə və hər yerdə olmur. Bu da onların ya asan yem olmasına, ya da yem tapa bilmədiyi üçün ölümlərinə gətirib çıxarır.

Demək olar ki, bütün növ heyvanlarda albinoslara rast gəlmək olar: köstəbəklər, yarasalar, quşlar, tısbağalar, suda-quruda yaşayanlar, balıqlar və s.

Alimlərin hesabatlarına görə hər 10 min heyvandan biri tam albinos olaraq doğulur.

Bir çox albinos quşların lələkləri çox kövrək olur, eyni zamanda rəngləri də adət edildiyi kimi olmur.

Səbinə QASIMOVA

Günəbaxan çiçəyi



Ləvazimatlar:

Lent, qayçı, maqqaş, yapışqan, keçə, alışqan və ya şam, qara qaşlar, plastik parabüzənlər

Hazırlanması:

Əvvəlcə lentdən uzunluğu 6-7 sm olan hissələr kəsirik.

Hər hissəni ortadan uzununa qatlayıb maqqaşla şəkildəki kimi tuturuq.

Maqqaşdan yuxarıda qalan kiçik hissəni kəsirik və kəsdiyimiz yeri alışqanla və ya şamla yavaşca yapışdırırıq.

Lentimizi açırıq. Aşağı kənarlarını üz-üzə gələn formada qatlayırıq və şamla yapışdırırıq.

Ləçəyimiz hazırdı.

Bu qayda ilə ləçəklərdən 20-25 ədəd hazırlayırıq.

Ləçəyin arxa hissəsinə yapışqan çəkib keçə dairənin kənarlarına yapışdırırıq.

Bu qayda ilə ikinci sıranı da düzürük.

Xırda qaşları boş qalan orta hissəyə yapışdırırıq.

Və ən sonda parabüzənlərimizi zövqə görə çiçəyimizə yapışdırırıq.

Günəbaxan çiçəyimiz hazırdır. Çiçəyi saçınız üçün aksesuar və zövqünüzə uyğun necə istəsəniz istifadə edə bilərsiniz.







